Scanned with CamScanner


Sınaq 6 - Qəbul

1. Düzgün dördbucaqlı paralelepipedin diaqonal kəsiyinin oturacağı ilə əmələ gətirdiyi ikiüzlü bucaq 60°-dir. Bu paralelepipedin oturacağının sahəsi 36 sm² olarsa, hündürlüyünü tapın.
A) 6 sm B) $6\sqrt{2}$ sm C) $6\sqrt{3}$ sm
D) 12 sm E) $12\sqrt{3}$ sm

2. O mərkəzli çevrənin AB vətərinin uzunluğu radiusunun uzunluğu ilə diametrinin uzunluğunun həndəsi ortasına bərabər olarsa, ∠ABO-nu tapın.
A) 30° B) 36° C) 45° D) 60° E) 72°

3. Hesablayın: $\lim\limits_{x\to\infty}\dfrac{6x^2-4x+1}{x-3x^2}$.
A) –2 B) –1 C) 1 D) 2 E) 3

4. ΔABC-də ∠ACB = 90°, CD hündürlük, $P_{\Delta ADC}$ = 20 sm və $P_{\Delta CDB}$ = 21 sm olarsa, $P_{\Delta ACB}$-ni tapın.
A) 24 sm
B) 25 sm
C) 27 sm
D) 29 sm
E) 30 sm



5. $y = x^2$ parabolası üzərində yerləşən və $y = 2x - 7$ düz xəttinə ən yaxın olan nöqtənin absisini tapın.
A) 0 B) $\dfrac{1}{\sqrt{2}}$ C) 1 D) $\sqrt{2}$ E) 2

6. Perimetri 60 olan üçbucağın böyük tərəfi hansı aralıqda qiymətlər ala bilər?
A) (20; 30) B) (25; 30) C) (20; 40)
D) (25; 40) E) (25; 59)

7. Müstəvini kəsməyən parçanın ucları müstəvidən 2 sm və 16 sm məsafədədir. Bu parçanın ortası müstəvidən hansı məsafələrdədir?
A) 14 sm B) 12 sm C) 11 sm
D) 9 sm E) 7 sm

8. $\begin{cases} x+\dfrac{1}{2}y=13 \\ \dfrac{1}{3}x-y=2 \end{cases}$ tənliklər sistemindən x-i tapın.
A) 9 B) 12 C) 15 D) 18 E) 21

9. $\bar{a}(2; 1)$ vektoru ilə kollinear və əks istiqamətli olan vektoru göstərin.
A) (2; –1) B) (–2; 1) C) (6; 3)
D) (–6; –3) E) (–6; 3)

10. Aşağıdakılardan hansı $x^3 + x + 2$ üçhədlisinin vuruqlarından biridir?
A) $x^2 + x + 2$ B) $-x^2 - x - 2$
C) $x^2 - x + 2$ D) $-x^2 + x + 2$
E) $x^2 + x - 2$

11. $\sin45° \cdot \cos15° + \cos45° \cdot \sin15°$ ifadəsinin qiymətini tapın.
A) $\dfrac{1}{2}$ B) $\dfrac{\sqrt{2}}{2}$ C) $\dfrac{\sqrt{3}}{3}$ D) $\dfrac{\sqrt{3}}{2}$ E) $\sqrt{3}$

12. Düzgün çoxbucaqlının bir təpəsindən çıxan diaqonallarının sayı 9 olarsa, bir xarici bucağını tapın.
A) 40° B) 36° C) 30° D) 24° E) 20°


13. Aşağıdakı kəsrlərdən hansı $\dfrac{8}{21}$ ilə $\dfrac{6}{11}$ kəsrlərinin arasında yerləşir?
A) $\dfrac{1}{3}$ B) $\dfrac{1}{4}$ C) $\dfrac{3}{7}$ D) $\dfrac{2}{11}$ E) $\dfrac{3}{8}$

14. $\dfrac{\sqrt{5}+\sqrt{3}+2\sqrt{15}+8}{1+\sqrt{3}+\sqrt{5}}$ ifadəsini sadələşdirin.
A) $\sqrt{5}+1$ B) $\sqrt{3}+1$ C) $\sqrt{5}-1$
D) $\sqrt{3}-1$ E) $\sqrt{5}+\sqrt{3}$

15. $\dfrac{x}{3}=\dfrac{y}{4}=z$ və $3x - 2y + z = 12$ olarsa, z = ?
A) 3 B) 4 C) 6 D) 9 E) 12

16. $ax + b = x - 2$ tənliyinin sonsuz sayda həlli olarsa, ab hasilini tapın.
A) –2 B) –1 C) 0 D) 1 E) 2

17. Diaqrama əsasən, C_A' çoxluğunun elementlərinin sayını tapın.
A) 2
B) 3
C) 4
D) 5
E) 6



Scanned with CamScanner

18. a-nın hansı qiymətlərində $5a - 30$ ifadəsi ilə $a + 6$ ifadəsinin fərqi mənfi qiymətlər alır?
A) $a < 6$ B) $a < 9$ C) $a < 12$
D) $a < 18$ E) $a < 24$

19. 60 ədədi üçün aşağıdakılardan hansı doğru ***deyil***?
A) 3 müxtəlif sadə vuruğu var
B) 4 sadə vuruğu var
C) 4 sadə böləni var
D) 12 natural böləni var
E) 60-dan kiçik və 60 ilə qarşılıqlı sadə olan 16 ədəd var

20. $y = x^2 - 4x + 3$ funksiyası üçün aşağıdakılardan hansı doğru ***deyil***?
A) Ən kiçik qiyməti (-1)-ə bərabərdir
B) $(-\infty; 2]$ aralığında azalır
C) $x = 4$ xətti qrafikinin simmetriya oxudur
D) Qrafiki Oy oxunu $(0; 3)$ nöqtəsində kəsir
E) Qrafiki Ox oxunu $(1; 0)$ və $(3; 0)$ nöqtələrində kəsir

21. Aşağıdakı ədədlərdən hansının modulu ən kiçikdir?
A) -6 B) 5 C) -4 D) 3 E) -2

22. $a_n = 3n - 10$ ədədi silsiləsinin ən kiçik müsbət həddini tapın.
A) 1 B) 2 C) 3 D) 4 E) 5


Cavablarının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar

23. $\log_{\frac{1}{2}}(x-3) \geq -2$ bərabərsizliyinin tam həllərinin sayını tapın.

24. Diaqonalları 12 sm və 8 sm olan rombun sahəsi neçə sm^2-dır?

25. Qonşu bucaqların fərqi 24° olarsa, bu bucaqlardan kiçiyi neçə dərəcədir?

26. ABCD düzbucaqlısında AC və BD diaqonalları O nöqtəsində kəsişir. Şəklə əsasən, x-i tapın.



27. Uyğunluğu müəyyən edin.

1. $\cos 0° \cdot \cos 30°$
2. $\sin 30° \cdot \sin 45°$
3. $\operatorname{tg} 45° \cdot \operatorname{tg} 60°$

a. $\sqrt{3}$ b. $\frac{\sqrt{3}}{2}$ c. $\frac{\sqrt{3}}{4}$
d. $\sqrt{2}$ e. $\frac{\sqrt{2}}{4}$

Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlar

28. 48 ədədindən 25 % böyük olan ədəd hansı ədəddən 70 % azdır?

29. $x^2 - 3x + 1 = 0$ olarsa, $x^3 + x^2 + x + \frac{1}{x} + \frac{1}{x^2} + \frac{1}{x^3}$ ifadəsinin qiymətini hesablayın.

30. İsbat edin ki, düzbucaqlının tərəflərinin orta nöqtələrinin ardıcıl birləşməsindən alınan fiqur rombdur.

Situasiya

Qatar A məntəqəsindən düzxətli hərəkət edərək B məntəqəsinə çatır və hərəkət istiqamətini 90° dəyişib yenə düzxətli hərəkət edərək C məntəqəsinə gedir. Qatarın getdiyi yolun ümumi uzunluğu 138 km-dir.

Qatar 30 vaqondan ibarətdir və vaqonlar 20 nəfərlik, 40 nəfərlik və 60 nəfərlikdir. Uşaqlar üçün biletlər böyüklər üçün biletlərdən 25 % ucuzdur.

28. AB : BC = 8 : 15 olarsa, A məntəqəsindən C məntəqəsinə qədər ən qısa məsafə neçə km-dir?

29. 20 nəfərlik vaqonların sayı bütün vaqonların sayının 0,2(6) hissəsini təşkil edir. 60 nəfərlik vaqonların sayı 40 nəfərlik vaqonların sayından 75 % çox olarsa, 40 nəfərlik vaqonların sayını tapın.

30. Biletlərin qiymətləri vaqonların sərnişin tutumları ilə tərs mütənasibdir. 40 nəfərlik vaqonda uşaqlar üçün bilet 9 manat olarsa, 60 nəfərlik vaqonda böyüklər üçün biletin qiyməti neçə manatdır?

Scanned with CamScanner

Permutasiya. Kombinezon

TEST A

1. $\frac{3!+4!}{7!}$ ifadəsinin qiymətini hesablayın.

A) 7! B) 1 C) $\frac{12!}{5!}$

D) $\frac{30!}{3!}$ E) $\frac{1}{7\cdot 4!}$

2. $0!+1!+2!+3!+4!+5!$ ifadəsinin qiymətini tapın.

A) 100 B) 110 C) 120
D) 124 E) 154

3. Hesablayın: $\frac{96}{4!\cdot 6!}$

A) $\frac{1}{100}$ B) $\frac{1}{110}$ C) $\frac{1}{120}$

D) $\frac{1}{180}$ E) $\frac{1}{230}$

4. Hesablayın: $\frac{14!}{12!\cdot 169}\cdot\frac{91\cdot 13!}{15!}$

A) $\frac{1}{2}$ B) $\frac{7}{12}$ C) $\frac{3}{14}$ D) $\frac{7}{15}$ E) $\frac{4}{15}$

5. Kəsri ixtisar edin: $\frac{(n+2)!}{(n+1)!\cdot(n+2)}$

A) 1 B) $\frac{1}{n+2}$ C) $n+1$

D) $n+2$ E) $n-1$

6. $(n-1)!+n!$ cəmini vuruqlara ayırın.

A) $(n+1)(n-1)$ B) $(n-1)!\cdot(n+1)$
C) $n!\cdot(n+1)$ D) $(n-1)!\cdot(n+2)$
E) $(n-2)!\cdot(n+1)$

7. $(n+2)!-(n+1)!$ fərqini vuruqlara ayırın.

A) $(n+2)!\cdot(n-1)$ B) $(n+1)!\cdot(n+1)$
C) $(n+1)!\cdot(n+2)$ D) $(n+1)!\cdot n$
E) $(n+1)!$

8. Kəsri ixtisar edin: $\frac{(n+2)!\cdot(n-1)!}{(n+1)!\cdot n!}$

A) $\frac{n}{n+2}$ B) $\frac{n+2}{n}$ C) $\frac{n^2+2n}{n+1}$

D) $\frac{n}{n+1}$ E) $\frac{n-1}{n+1}$

9. $(n+1)!+n!=120(n+2)$ olarsa, $n=?$

A) 3 B) 4 C) 5 D) 6 E) 7

10. Hesablayın: $\frac{{}_6P_6}{{}_5P_5}$

A) 3 B) 4 C) 5 D) 6 E) 1

11. $\frac{{}_{20}P_{20}}{{}_{19}P_{19}}$ ifadəsinin qiymətini hesablayın.

A) 1 B) 20 C) 19 D) 21 E) 10

12. $\frac{{}_{n+1}P_{n+1}}{{}_nP_n}$ ifadəsinin qiymətini hesablayın.

A) $n-1$ B) n C) $n+1$
D) n^2+n E) $2n$

13. ${}_6P_2+{}_7P_3$ ifadəsinin qiymətini tapın.

A) 200 B) 40 C) 220
D) 230 E) 240

14. ${}_9P_4-{}_9P_3$ ifadəsinin qiymətini tapın.

A) 2020 B) 2500 C) 2560
D) 2580 E) 2520

15. ${}_5P_3+{}_3P_3$ ifadəsinin qiymətini tapın.

A) 20 B) 60 C) 6 D) 26 E) 66

16. Hesablayın: $\frac{{}_4P_3+{}_4P_2}{{}_4P_4}$

A) $\frac{1}{2}$ B) $\frac{2}{3}$ C) $\frac{3}{2}$ D) $\frac{5}{6}$ E) $\frac{1}{3}$

Scanned with CamScanner

17. Hesablayın: $\frac{{}_5P_3 + {}_7P_2}{{}_3P_3}$

A) 12 B) 17 C) 7 D) 2 E) 10

18. ${}_xP_2 = 56$ olarsa, x-i tapın.

A) 7 B) 8 C) 12 D) 16 E) 20

19. ${}_xP_2 = 380$ olarsa, x-i tapın.

A) 20 B) 19 C) 10 D) 5 E) 25

20. Hesablayın: $\frac{{}_4P_2}{{}_4C_3 \cdot {}_4A_3}$

A) $\frac{1}{2}$ B) $\frac{1}{4}$ C) $\frac{1}{8}$ D) $\frac{1}{16}$ E) $\frac{1}{32}$

21. Hesablayın: $\frac{{}_6C_4 + {}_5C_2}{{}_6C_2 + {}_5C_4}$

A) $\frac{1}{2}$ B) $\frac{3}{2}$ C) $\frac{3}{4}$ D) $\frac{1}{4}$ E) $\frac{5}{4}$

22. ${}_9C_4 - {}_8C_3$ ifadəsinin qiymətini tapın.

A) 70 B) 140 C) 126 D) 56 E) 86

23. ${}_6C_3 - {}_5C_3$ ifadəsinin qiymətini tapın.

A) 5 B) 10 C) 15 D) 20 E) 25

24. Hesablayın: $\frac{{}_{10}C_3}{{}_5P_3}$

A) 2 B) 4 C) 6 D) 12 E) 24

25. ${}_{20}C_{19} + {}_5P_1$ ifadəsinin qiymətini tapın.

A) 19 B) 20 C) 25 D) 39 E) 35

26. ${}_{10}C_9 + {}_{10}C_1$ cəmini tapın.

A) 10 B) 19 C) 2 D) 20 E) 29

27. Hesablayın: ${}_9C_7 + \frac{{}_3P_2 - {}_7P_2}{{}_2P_1}$

A) 9 B) 91 C) 93 D) 90 E) 18

28. Hesablayın: ${}_{26}C25 - {}_4P_4$

A) 1 B) 2 C) 3 D) 4 E) 5

29. Hesaablayın: ${}_{14}C_{13} + {}_3P_2$

A) 10 B) 20 C) 30 D) 40 E) 50

30. $\frac{{}_3C_2}{{}_7C_3} = \frac{x}{2}$ olarsa, x-i tapın.

A) $\frac{3}{14}$ B) $\frac{6}{35}$ C) $\frac{35}{6}$ D) $\frac{12}{21}$ E) $\frac{3}{7}$

31. $x \neq y$ və $6Cx = 6Cy$ olarsa, $(x + y)$ cəmini tapın.

A) 20 B) 36 C) 12 D) 8 E) 6

32. 4 kitabı rəfə neçə üsulla düzmək olar?

A) 1 B) 4 C) 6 D) 24 E) 36

33. 1, 2 və 3 rəqəmlərinin köməyi ilə rəqəmləri müxtəlif neçə üçrəqəmli ədəd düzəltmək olar?

A) 3 B) 4 C) 6 D) 9 E) 27

34. 0, 4, 6 və 9 rəqəmlərinin köməyi ilə rəqəmləri müxtəlif neçə dördrəqəmli ədəd düzəltmək olar?

A) 64 B) 24 C) 20 D) 18 E) 10

35. 1, 3, 5 və 7 rəqəmlərinin köməyi ilə rəqəmləri müxtəlif neçə ikirəqəmli ədəd düzəltmək olar?

A) 24 B) 18 C) 16 D) 12 E) 6

36. 2, 5 və 8 rəqəmlərinin köməyi ilə rəqəmləri müxtəlif neçə ikirəqəmli ədəd düzəltmək olar?

A) 12 B) 9 C) 6 D) 4 E) 3

37. 10 elementli çoxluğun 2 elementli alt çoxluqlarının sayını tapın.

A) 100 B) 90 C) 50 D) 45 E) 20

38. 9 elementli çoxluğun 3 elementli alt çoxluqlarının sayını tapın.

A) 729 B) 504 C) 84 D) 63 E) 27

39. 20 nəfərlik sinifdən 2 növbətçini neçə üsulla seçmək olar?

A) 40 B) 120 C) 195 D) 380 E) 190

Scanned with CamScanner

40. 16 nəfərlik sinifdən 2 növbətçini neçə üsulla seçmək olar?
A) 18 B) 32 C) 64
D) 120 E) 240

41. Hesablayın: $\frac{5!+6!}{4!}$
A) 15 B) 25 C) 35 D) 45 E) 55

42. Aşağıdakılardan hansı doğru ***deyil***?
A) ${}_nP_{k+1} = {}_nP_k \cdot (n-k)$
B) ${}_nP_k = n \cdot {}_{n-1}Pk-1$
C) ${}_nC_k + {}_nC_{k-1} = n + {}_1C_k$
D) ${}_nC_k = {}_nC_{n-k}$
E) ${}_nP_k = {}_nC_k \cdot {}_nP_n$

43. Hesablayın: $\frac{8!-6!}{6!+5\cdot5!}$
A) 30 B) 28 C) 25 D) 24 E) 21

44. ${}_5C_2 - {}_5C_3$ ifadəsinin qiymətini tapın.
A) –3 B) –2 C) –1 D) 0 E) 1

45. Hesablayın: $\frac{11!-10!}{9!+8!}$.
A) 72 B) 80 C) 81 D) 90 E) 99

46. Hesablayın: $\frac{7!-6!}{5!+4!}$.
A) 24 B) 27 C) 28 D) 30 E) 32

47. 4 fizika, 3 kimya və 2 biologiya müəllimi, dəyirmi stol arxasında, eyni fənnin müəllimləri yan-yana olmaq şərtilə neçə fərqli şəkildə otura bilər?
A) 438 B) 396 C) 458
D) 524 E) 576

48. ${}_6C_4 + {}_6A_2$ cəmini hesablayın.
A) 60 B) 54 C) 45 D) 42 E) 36

49. $\frac{{}_{12}P_{12}}{{}_{10}P_{10}}$ ifadəsinin qiymətini hesablayın.
A) 66 B) 72 C) 90 D) 108 E) 132

50. 10 nəfərlik sinifdə qız şagirdlərdən qurula bilən mümkün 2 nəfərlik qrupların sayı oğlanların sayına bərabərdir. Sinifdəki qız şagirdlərin sayını tapın.
A) 4 B) 6 C) 3 D) 8 E) 5

51. Paskal üçbucağının 5-ci sətrində duran elementlərin cəmini tapın.
A) 10 B) 20 C) 25 D) 32 E) 40

52. Paskal üçbucağının 6-cı sətrində duran elementlərin cəmini tapın.
A) 12 B) 16 C) 32 D) 36 E) 64

53. $(x + 2y)^4$ binomunda binomial əmsalların cəmini tapın.
A) 81 B) 64 C) 27 D) 16 E) 12

54. $(4x - y)^3$ binomunda binomial əmsalların cəmini tapın.
A) 8 B) 12 C) 16 D) 27 E) 36

55. $(2x - y)^5$ binomunda binomial əmsalların cəmini tapın.
A) 1 B) 5 C) 10 D) 25 E) 32

56. $(3x + 1)^3$ binomunda binomial əmsalların cəmini tapın.
A) 8 B) 27 C) 64 D) 81 E) 243

57. $(x + 3y)^4$ binomunun açılışında orta həddin binomial əmsalını tapın.
A) 8 B) 6 C) 4 D) 2 E) 1

Scanned with CamScanner

58. $(2x + 3y)^6$ binomunun açılışında orta həddin binomial əmsalını tapın.
A) 12 B) 15 C) 20 D) 24 E) 36

59. $(a + b)^6$ binomunun açılışında 5-ci həddin binomial əmsalını tapın.
A) 30 B) 24 C) 20 D) 15 E) 6

60. $(a - b)^5$ binomunun açılışında 3-cü həddin binomial əmsalını tapın.
A) 1 B) 3 C) 5 D) 6 E) 10

61. Hesablayın: $\frac{4({}_5C_2 + {}_6C_4)}{{}_5C_4 + {}_6C_2}$

62. 9 voleybol komandasından 3 komandanı neçə müxtəlif üsulla seçmək olar?

63. 5 kitabı rəfə neçə müxtəlif üsulla düzmək olar?

64. 4, 5 və 9 rəqəmlərinin köməyi ilə rəqəmləri müxtəlif neçə üçrəqəmli cüt ədəd düzəltmək olar?

65. ${}_4P_4 + {}_4P_2 + {}_4C_2$ cəmini tapın.

66. Uyğunluğu müəyyən edin.

1. ${}_5P_5 + {}_5P_2$
2. ${}_5P_2 + {}_5C_3$
3. ${}_5P_5 + {}_5C_3$

a. 140
b. 130
c. 120
d. 44
e. 30

67. Uyğunluğu müəyyən edin.

1. $a = {}_7C_3 - {}_5C_3$
2. $a = {}_9P_2 - {}_9P_1$
3. $a = {}_7C_2 - {}_5C_3$

a. $a = 72$ b. $a = 63$
c. $a = 25$ d. $a = 24$
e. $a = 11$

68. Uyğunluğu müəyyən edin.

1. ${}_8C_2 \cdot {}_2P_2$
2. ${}_8P_2 \cdot {}_6P_6$
3. ${}_8C_2 \cdot {}_6P_6$

a. ${}_6P_6$ b. ${}_8P_8$
c. ${}_8P_2$ d. ${}_8P_6$
e. ${}_8C_6$

69. Uyğunluğu müəyyən edin.

1. ${}_{11}C_8 \cdot \frac{2}{11}$
2. ${}_{20}C_{19} + {}_5P_1$
3. ${}_{15}C_2 - {}_{15}P_1$

a. 90
b. (28; 32) intervalında yerləşir.
c. 30
d. 25
e. (80;100) intervalında yerləşir.

70. 10 elementli çoxluğun k elementli alt çoxluqlarının sayı üçün uyğunluğu müəyyən edin.

1. $k = 2$
2. $k = 3$
3. $k = 4$

a. 45 b. 90
c. 120 d. 210
e. 240

Scanned with CamScanner

TEST B

1. Tənliyi həll edin: ${}_{x-1}P_2 - {}_xC_1 = 79$

A) 6 B) 8 C) 11 D) 14 E) 15

2. Tənliyi həll edin: $\frac{{}_{x+1}C_2}{{}_xC_3} = \frac{4}{5}$

A) 7 B) 6 C) 5 D) 4 E) 3

3. ${}_xC_3 = 20$ tənliyini həll edin.

A) 3 B) 4 C) 6 D) 8 E) 10

4. Hesablayın: ${}_{2004}C_{1954} + {}_{2004}C_{1955} - {}_{2005}C_{50}$

A) 0 B) 50 C) 1 D) 5 E) 2

5. Hesablayın: $\frac{6}{11}({}_7C_5 + {}_7C_6 + {}_8C_5 + {}_9C_7 + {}_{10}C_8)$

A) 90 B) 10 C) 905 D) 11 E) 100

6. Hesablayın: $\frac{1}{5} \cdot {}_{99}C_2 : {}_{100}P_3 + \frac{0,001}{0,(001)}$

A) 0,1 B) 0,01 C) 0,5
D) 1 E) 2

7. ${}_xC_{x-1} + {}_xC_x - 2 = 6$ olarsa, ${}_xP_x = ?$

A) 6 B) 24 C) 120 D) 3 E) 21

8. $4 \cdot {}_nC_{n-2} = {}_nP_3$ olarsa, $n! = ?$

A) 2 B) 6 C) 24 D) 4 E) 12!

9. ${}_xC_2 = 3$ olarsa, $x = ?$

A) 1 B) 2 C) 3 D) 4 E) 0

10. Tənliyi həll edin: ${}_{x+2}P_5 = {}_5P_5 \cdot {}_xC_4$

A) 1 B) 2 C) 3 D) 4 E) 5

11. "SƏBƏB" sözündəki hərflərin yerini dəyişməklə neçə oxunuşu müxtəlif olan söz düzəltmək olar?

A) 12 B) 24 C) 30 D) 60 E) 120


12. 4 vəkil və 3 hakimin olduğu bir qrupdan 2 vəkil ilə 1 hakimi neçə fərqli şəkildə seçmək olar?

A) 18 B) 20 C) 24 D) 30 E) 36

13. 6 qız ilə 8 oğlanın olduğu bir qrupdan 2 qız ilə 2 oğlanı neçə fərqli şəkildə seçmək olar?

A) 120 B) 210 C) 320
D) 420 E) 560

14. d_1 və d_2 şüaları üzərindəki nöqtələrin ikisindən keçməklə bu düz xətləri kəsən neçə düz xətt çəkmək olar?



A) 12 B) 18
C) 20 D) 24
E) 36

15. Çevrə üzərindəki nöqtələrin ikisindən keçməklə neçə düz xətt çəkmək olar?



A) 6 B) 15
C) 30 D) 45
E) 60

16. $(a + b)^n$ binomunda binomial əmsalların cəmi 256 olarsa, orta həddin binomial əmsalını tapın.

A) 80 B) 70 C) 56 D) 48 E) 32

17. $(3a + b)^n$ binomunda binomial əmsalların cəmi 256 olarsa, orta həddin binomial əmsalını tapın.

A) 70 B) 56 C) 32 D) 24 E) 6

18. $(2a + 1)^4$ binomunun ayrılışında 4-cü həddin əmsalını tapın.

A) 8 B) 6 C) 4 D) 2 E) 1

Scanned with CamScanner

19. $(a-2)^6$ binomunun açılışında a^3-nun əmsalını tapın.
A) –160 B) 120 C) 130
D) –140 E) –100

20. $(b-3)^5$ binomunun açılışında b^3-nun əmsalını tapın.
A) 180 B) 126 C) 102
D) 99 E) 90

21. $\left(x+\frac{1}{x}\right)^{13}$ binomunun açılışında x^9-un əmsalını tapın.
A) 78 B) 68 C) 58 D) 48 E) 38

22. $\left(x+\frac{1}{2x}\right)^{9}$ binomunun açılışında x^5-in əmsalını tapın.
A) 5 B) 7 C) 9 D) 11 E) 13

23. $\left(\sqrt{2}+\sqrt[3]{2}\right)^{60}$ binomunun açılışında neçə hədd rasional ədəddir?
A) 12 B) 11 C) 10 D) 9 E) 8

24. 3, 3, 4, 0, 6, 6 rəqəmlərindən neçə fərqli altırəqəmli ədəd düzəltmək olar?
A) 60 B) 100 C) 120
D) 150 E) 600

25. Aralarında 2 müəllimin olduğu 7 nəfərlik qrup yan-yana şəkil çəkdirməlidir. İki müəllimin yan-yana ***gəlməməsi*** şərti ilə bu qrup neçə fərqli üsulla şəkil çəkdirə bilər?
A) 5040
B) 4800
C) 4440
D) 4320
E) 3600



Qiymətləndirmə

1. Soldan sağa və sağdan sola eyni cür oxunan ədədlərə palindrom ədədlər deyilir. Dördrəqəmli palidrom ədədlərin sayını tapın.
A) 10000 B) 9999 C) 9000
D) 100 E) 90

2. $\frac{(n-1)!}{n!}$ ifadəsini sadələşdirin.
A) $\frac{1}{n}$ B) $n-1$
C) $\frac{1}{n-1}$ D) n
E) $n(n-1)$

3. $\frac{7!+6!}{6!-5!}$ ifadəsinin qiymətini hesablayın.
A) 10 B) 9,6 C) 9 C) 8,4 E) 8

4. ZƏLZƏLƏ sözünün hərflərini oxunuşu müxtəlif olan neçə variantda düzmək olar?
A) 70 B) 105 C) 140
D) 210 E) 840

5. İkirəqəmli natural ədədlərdən neçəsinin rəqəmləri azalan sıra ilə düzülmüşdür?
A) 49 B) 45 C) 44 D) 40 E) 36

6. $\frac{30\cdot 4!+6!}{6!-2\cdot 5!}$ ifadəsinin qiymətini hesablayın.
A) 6 B) 5 C) 4 D) 3 E) 2

7. $A = \{a; b; c; d; e\}$ çoxluğunun alt çoxluqlarının sayını tapın.
A) 32 B) 25 C) 24 C) 20 D) 15

Scanned with CamScanner

8. Rəqəmləri fərqli olan ikirəqəmli natural ədədlərin sayını tapın.
A) 99 B) 90 C) 81 D) 80 E) 72

9. A = {1; 2; 3; 4; 5, 6, 7, 8, 9} çoxluğunun elementləri yalnız sadə ədədlər olan alt çoxluqlarının sayını tapın.
A) 32 B) 25 C) 20 C) 16 D) 12

10. Elçinin 4 şalvarı və 3 köynəyi var. O bu paltarları neçə üsulla geyinə bilər?
A) 3 B) 4 C) 7 D) 10 E) 12

11. 9, 6, 3 və 0 rəqəmlərinin köməyi ilə düzəldilə bilən bütün üçrəqəmli ədədlərin sayını tapın.
A) 64 B) 48 C) 36 D) 27 E) 12

12. 6 fərqli rəngdə olan topu hər torbada 3 top olmaq şərti ilə neçə fərqli formada 2 torbaya yığmaq olar?
A) 60 B) 48 C) 40 D) 36 E) 20

13. 12 nəfərlik sinifdən 3 növbətçini neçə üsulla seçmək olar?
A) 240 B) 220 C) 180
D) 165 E) 154

14. Çevrə üzərində 8 nöqtə qeyd olunmuşdur. Təpələri bu nöqtələrdə olan neçə fərqli dördbucaqlı çəkmək olar?
A) 84 B) 70 C) 64 D) 54 E) 48

15. 10 qız ilə 12 oğlanın olduğu bir sinifdən 1 qız ilə 2 oğlanı neçə fərqli şəkildə seçmək olar?
A) 720 B) 690 C) 660
D) 600 E) 540

16. 1, 2, 3, 4 və 5 rəqəmlərinin hərəsindən 1 dəfə istifadə etməklə 30000-dən böyük neçə ədəd düzəltmək olar?
A) 120 B) 96 C) 72
D) 60 E) 48

17. A = {a; b; c; d; e; f} çoxluğunun alt çoxluqlarının neçəsinə {f} elementi daxildir?
A) 64 B) 48 C) 32 C) 25 D) 16

18. 2 şalvarı, 3 köynəyi və 4 jaketi olan Ramilin bu paltarları geyinməsi üçün neçə fərqli seçim variantı var?
A) 24 B) 18 C) 15 D) 12 E) 9

19. ${}_xP_2 + {}_xC_2 = 45$ tənliyinin həll edin.
A) 6 B) 5 C) 4 D) 3 E) 2

20. TƏRTƏR sözünün hərflərini oxunuşu müxtəlif olan neçə variantda düzmək olar?
A) 90 B) 120 C) 144
D) 180 E) 240

Scanned with CamScanner

Fırlanma cisimləri

TEST A

1. Kürənin səthinin sahəsinin düsturunu göstərin.
   A) $4\pi R^3$ B) $\frac{4}{3}\pi R^3$ C) $4\pi R^2$
   D) $\frac{4}{3}\pi R^2$ E) $\frac{3}{4}\pi R^2$

2. Kürənin həcm düsturu hansıdır?
   A) $\frac{4}{3}\pi R^3$ B) $\frac{\pi R^3}{6}$ C) $\frac{4R^3}{\pi}$
   D) $4\pi R^3$ E) $\frac{1}{3}\pi R^3$

3. İki kürənin həcmləri nisbəti 27 olarsa, onların radiusları nisbətini tapın.
   A) 27 B) $3\sqrt{3}$ C) 3 D) 2 E) 9

4. İki kürənin həcmləri nisbəti 27 : 8 kimidir. Onların diametrləri nisbətini tapın.
   A) 9 : 2 B) 3 : 2 C) 9 : 4
   D) 3 : 4 E) 27 : 16

5. İki kürənin həcmləri nisbəti 27 : 64 kimidir. Onların səthlərinin sahələri nisbətini tapın.
   A) 3 : 4 B) 9 : 16 C) 9 : 20
   D) 8 : 27 E) 27 : 64

6. Sferanın diametrini 3 dəfə azaltdıqda, onun səthinin sahəsi neçə dəfə azalar?
   A) 3 B) $\sqrt{3}$ C) 6 D) 4,5 E) 9

7. İki kürənin həcmləri nisbəti 216 olarsa, onların radiusları nisbətini tapın.
   A) 6 B) 8 C) 12 D) 9 E) $6\sqrt{6}$

8. Kürənin radiusunu 5 dəfə azaltsaq, həcmi necə dəyişər?
   A) 5 dəfə azalar B) dəyişməz
   C) 25 dəfə azalar D) 125 dəfə azalar
   E) 125 dəfə artar

9. İki kürədən birincinin həcmi ikincisindən 8 dəfə böyükdür. Birinci kürənin səthinin sahəsi ikincisindən neçə dəfə böyükdür?
   A) 2 B) 4 C) 8 D) 16 E) 32

10. Radiusu 4 sm olan kürənin səthinin sahəsini tapın.
    A) 32π sm^2 B) 48π sm^2 C) 4π sm^2
    D) 64π sm^2 E) 48 sm^2

11. Kürənin radiusu 3 sm isə səthinin sahəsi nə olar?
    A) 36π sm^2 B) 72π sm^2
    C) 32π sm^2 D) 8π sm^2
    E) 48π sm^2

12. Kürənin diametri 4 sm-dir. Kürənin səthinin sahəsini tapın.
    A) 18π sm^2 B) 16π sm^2
    C) 30π sm^2 D) 9π sm^2
    E) 10π sm^2

13. İki kürənin həcmləri nisbəti 8 : 27 və radiuslarının cəmi 10 sm-dir. Onların səthlərinin sahələri fərqini tapın.
    A) 80π sm^2 B) 16π sm^2
    C) 36π sm^2 D) 40π sm^2
    E) 10π sm^2

14. İki kürənin həcmləri nisbəti 1 : 8 və radiuslarının cəmi 9 sm-dir. Səthlərinin sahələri cəmini tapın.
    A) 180π sm^2 B) 144π sm^2
    C) 108π sm^2 D) 72π sm^2
    E) 36π sm^2

15. İki kürənin birinin həcmi digərindən 27 dəfə böyükdür. Birinci kürənin səthinin sahəsi ikincidən neçə dəfə böyükdür?
    A) 9 B) 27 C) 3 D) 18 E) 24

16. Kürənin radiusu 3 sm isə həcmini tapın.
    A) 72π sm^3 B) 36π sm^3
    C) 18π sm^3 D) 27π sm^3
    E) 9π sm^3

Scanned with CamScanner

17. Kürənin radiusu 6 sm olarsa, həcmi nə olar?
A) 288π sm^3 B) 32π sm^3
C) 48π sm^3 D) 64π sm^3
E) 100π sm^3

18. Diametri 12 sm olan kürənin həcmini tapın.
A) 288π sm^3 B) 144π sm^3
C) 102π sm^3 D) 81π sm^3
E) 72π sm^3

19. Kürənin səthinin sahəsi 16π sm^2-dir. Kürənin həcmini tapın.
A) 32π sm^3 B) $\frac{32}{3}\pi$ sm^3
C) 16π sm^3 D) 20π sm^3
E) $\frac{20}{3}\pi$ sm^3

20. Kürənin səthinin sahəsi 36π sm^2 olarsa, həcmini tapın.
A) 144π sm^3 B) 9π sm^3 C) 48π sm^3
D) 24π sm^3 E) 36π sm^3

21. Həcmi $10\frac{2}{3}\pi$ sm^3 olan kürənin radiusunu tapın.
A) 8 sm B) 4 sm C) 5 sm
D) 2 sm E) 1 sm

22. Həcmi $166\frac{2}{3}\pi$ sm^3 olan kürənin radiusunu tapın.
A) 6 sm B) 4 sm C) 5 sm
D) 3 sm E) 9 sm

23. Kürənin mərkəzindən 2 m məsafədə keçirilmiş kəsiyin sahəsi 5π m^2-dir. Kürənin həcmini tapın.
A) 5π m^3 B) 10π m^3
C) 36π m^3 D) 9π m^3
E) 19π m^3

24. Aşağıdakı düsturlardan hansı silindrin həcminin düsturudur?
A) $V = \pi r^2 H$ B) $V = 2\pi r^2 H$
C) $V = 3\pi r^2 H$ D) $V = 4\pi r^2 H$
E) $V = 6\pi r^2 H$

25. Aşağıdakı düsturlardan hansı silindrin tam səthinin sahəsi düsturudur?
A) $S = \pi r^2$ B) $V = 2\pi r^2$
C) $V = 3\pi r^2$ D) $V = \pi r(r + H)$
E) $V = 2\pi r(r + H)$

26. Silindrin oturacağının radiusu 2 sm, hündürlüyü 4,5 sm olarsa, onun həcmini tapın.
A) 9π sm^3 B) 18π sm^3
C) $\frac{9}{\pi}$ sm^3 D) $(18\pi - 6)$ sm^3
E) 12π sm^3

27. Silindrin radiusunu 2 dəfə artırıb, hündürlüyünü 2 dəfə azaltsaq, yan səthinin sahəsi necə dəyişər?
A) dəyişməz B) 2 dəfə azalar
C) 2 dəfə artar D) 4 dəfə azalar
E) 4 dəfə artar

28. Silindrin oturacağının radiusunu 3 dəfə artırsaq, onun həcmi necə dəyişər?
A) dəyişməz B) 3 dəfə artar
C) 3 dəfə azalar D) 9 dəfə artar
E) 9 dəfə azalar

29. Silindrin hündürlüyünü dəyişmədən oturaca-ğının radiusunu neçə dəfə artırmaq lazımdır ki, həcmi 144 dəfə artsın?
A) 12 B) 6 C) 14 D) 4 E) 10

30. Silindrin oturacaq çevrəsinin uzunluğu 9 m, hündürlüyü 3 m-ə bərabərdir. Silindrin yan səthinin sahəsini tapın.
A) 27 m^2 B) 13,5 m^2
C) 27π m^2 D) 9 m^2
E) 9π m^2

31. Silindrin oturacaq çevrəsinin uzunluğu 8π m, hündürlüyü 7 m-ə bərabərdir. Silindrin yan səthinin sahəsini tapın.
A) 64π m^2 B) 56π m^2
C) 36π m^2 D) 32π m^2
E) 28π m^2

Scanned with CamScanner

32. Oturacağının radisusu 2 sm və hündürlüyü 3 sm olan silindrin yan səthinin sahəsini tapın.
A) 6π sm^2 B) 18π sm^2
C) 36π sm^2 D) 24π sm^2
E) 12π sm^2

33. Oturacağının radisusu 3 sm və hündürlüyü 2 sm olan silindrin tam səthinin sahəsini tapın.
A) 30π sm^2 B) 24π sm^2
C) 18π sm^2 D) 16π sm^2
E) 12π sm^2

34. Oturacağının radisusu 3 sm və hündürlüyü 4 sm olan silindrin həcmini tapın.
A) 18π sm^2 B) 24π sm^2
C) 29π sm^2 D) 30π sm^2
E) 36π sm^2

35. Silindrin yan səthinin sahəsi 18π sm^2-dir. Hündürlüyü 9 sm olarsa, bu silindrin oturacağının radiusunu tapın.
A) 3 sm B) 2 sm C) 1,5 sm
D) 1 sm E) 0,5 sm

36. Silindrin yan səthinin sahəsi 36π sm^2-dir. Oturacağının radiusu 3 sm olarsa, hündürlüyünü tapın.
A) 12 sm B) 9 sm C) 8 sm
D) 6 sm E) 4 sm

37. Silindrin ox kəsiyinin sahəsi $\frac{7}{\pi}$ sm^2-dir. Silindrin yan səthinin sahəsini tapın.
A) 7sm^2 B) 7π sm^2 C) 21π sm^2
D) 14π sm^2 E) π^2 sm^2

38. Silindrin ox kəsiyinin sahəsi 60 sm^2-dir. Yan səthinin sahəsini tapın.
A) 60 sm^2 B) 50 sm^2
C) 20π sm^2 D) 30π sm^2
E) 60π sm^2

39. Silindrin yan səthinin sahəsi $\frac{S}{4}$ isə, onun ox kəsiyinin sahəsini hesablayın.
A) S B) $\frac{S}{2\pi}$ C) $\frac{S}{4\pi}$ D) $\frac{S}{8\pi}$ E) 2 S

40. Silindrin ox kəsiyinin sahəsi 8-ə bərabərdir. Silindrin yan səthinin sahəsini tapın.
A) 4π B) 2π C) 8π D) π E) 16π

41. Silindrin hündürlüyü oturacağın radiusundan 5 sm böyükdür. Tam səthinin sahəsi isə 66π sm^2 olarsa, oturacağın radiusunu tapın.
A) 3 sm B) 4 sm C) 5 sm D) 6 sm E) 7 sm

42. Həcmi 48π sm^3 olan silindrin hündürlüyü 3 sm olarsa, tam səthinin sahəsini tapın.
A) 56π sm^2 B) 50π sm^2
C) 30π sm^2 D) 81π sm^2
E) 32π sm^2

43. Oturacağının sahəsi 4π sm^2 olan silindrin yan səthinin sahəsi 20π sm^2 olarsa, həcmini tapın.
A) 5π sm^3 B) 10π sm^3
C) 20π sm^3 D) 40π sm^3
E) 80π sm^3

44. Bərabərtərəfli silindrin radiusu 2 sm-dir. Onun hündürlüyünü tapın.
A) 2 sm B) 3 sm C) 5 sm
D) 4 sm E) 6 sm

45. Silindrin ox kəsiyi kvadratdır, oturacağının radiusu 2 sm-dir. Silindrin həcmini tapın.
A) 16π sm^3 B) 4π sm^3
C) 8π sm^3 D) 32π sm^3
E) 24π sm^3

46. Silindirin ox kəsiyi tərəfi 2 sm olan kvadratdır. Silindirin həcmini tapın.
A) 3π sm^3 B) π sm^3
C) 4π sm^3 D) 5π sm^3
E) 2π sm^3

47. Bərabərtərəfli silindirin hündürlüyü 2 sm-dir. Onun oturacağının sahəsini tapın:
A) 2π sm^2 B) 4π sm^2
C) 1 sm^2 D) 2 sm^2
E) π sm^2

Scanned with CamScanner

48. Silindrin oturacağının radiusu 6 sm, hündürlüyü 16 sm olarsa, ox kəsiyinin diaqonalını tapın.
A) 10 sm B) 18 sm C) 36 sm
D) 20 sm E) 15 sm

49. Silindrin oturacağının radiusu 5 sm-dir. Ox kəsiyi kvadrat olarsa, ox kəsiyinin perimetrini tapın.
A) 20 sm B) 30 sm C) 10 sm
D) 50 sm E) 40 sm

50. Silindrin ox kəsiyinin diaqonalı 5 və hündürlüyü 4 olarsa, onun oturacağının sahəsini tapın.
A) $\frac{9\pi}{4}$ B) $\frac{4\pi}{9}$ C) 3π D) 9π E) 4π

51. Silindrin oturacağının radiusu 2 m, hündürlüyü isə 3 m-dir. Ox kəsiyinin diaqonalını tapın.
A) 1 m B) 2 m C) 3 m
D) 4 m E) 5 m

52. Silindrin oturacağının radiusu 4 m, hündürlüyü isə 6 m-dir. Ox kəsiyinin diaqonalını tapın.
A) 10 m B) 9 m C) 8 m
D) 7,5 m E) 7 m

53. Silindrin oturacağının radiusu 4 m, ox kəsiyinin diaqonalı isə 17 sm olarsa, hündürlüyünü tapın.
A) 8 m B) 9 m C) 10 m
D) 12 m E) 15 m

54. Silindrin yan səthinin açılışı sahəsi 16 sm^2-ə bərabər olan kvadratdır. Silindrin həcmini tapın.
A) $32\pi\ sm^3$ B) $32\ sm^3$
C) $\frac{16}{\pi} sm^3$ D) $16\ sm^3$
E) $16\pi\ sm^3$

55. Silindrin yan səthinin açılışı tərəfi 10 olan kvadratdır. Silindrin həcmini tapın.
A) $\frac{125}{\pi}$ B) 250 C) $\frac{625}{\pi}$
D) $\frac{250}{\pi}$ E) 125

56. Aşağıdakı düsturlardan hansı konusun həcminin düsturudur?
A) $V = \pi R^2 H$ B) $V = \pi R^3 H$
C) $V = \frac{1}{3}\pi R^2 H$ D) $V = \frac{1}{3}\pi R^3 H$
E) $V = \frac{1}{3}\pi R^3 (H-R)$

57. Aşağıdakı düsturlardan hansı konusun tam səthinin sahəsi düsturudur?
A) $S = \pi RH$ B) $S = \pi Rl$
C) $S = 2\pi Rl$ D) $S = 2\pi R(R + l)$
E) $S = \pi R(R + l)$

58. Oturacağının radisusu 4 sm və hündürlüyü 3 sm olan konusun yan səthinin sahəsini tapın.
A) $12\pi\ sm^2$ B) $15\pi\ sm^2$
C) $20\pi\ sm^2$ D) $24\pi\ sm^2$
E) $36\pi\ sm^2$

59. Konusun oturacağının radiusu 6 m, hündürlüyü 8 m olarsa, konusun yan səthinin sahəsini tapın.
A) $60\pi\ sm^2$ B) $80\pi\ sm^2$
C) $96\pi\ sm^2$ D) $100\pi\ sm^2$
E) $140\pi\ sm^2$

60. Konusun hündürlüyü 12 sm, oturacağının sahəsi isə $25\pi\ sm^2$-dir. Konusun doğuranını tapın.
A) 13 sm B) 26 sm
C) $\sqrt{119}$ sm D) 6,5 sm
E) 15 sm

61. Konusun tam səthinin sahəsi $80\pi\ sm^2$, radiusu isə 4 sm-dir. Konusun doğuranını tapın.
A) 10 sm B) 12 sm C) 14 sm
D) 15 sm E) 16 sm

62. Konusun oturacağının radiusu 12 sm, hündürlüyü isə 5 sm olarsa, yan səthinin sahəsini tapın.
A) $120\pi\ sm^2$ B) $144\pi\ sm^2$
C) $156\pi\ sm^2$ D) $140\pi\ sm^2$
E) $150\pi\ sm^2$

Scanned with CamScanner

63. Konusun oturacağının radiusu 3m, hündürlüyü isə 4 m-dir. Konusun yan səthinin sahəsini tapın.
A) 3π m^2 B) 4π m^2 C) 11π m^2
D) 12π m^2 E) 15π m^2

64. Oturacağının radiusu 2 sm və hündürlüyü 3 sm olan konusun həcmini tapın.
A) 4π sm^3 B) 6π sm^3
C) 12π sm^3 D) 24π sm^3
E) 36π sm^3

65. Oturacağının radiusu 3 sm və hündürlüyü 2 sm olan konusun həcmini tapın.
A) 4π sm^3 B) 6π sm^3 C) 9π sm^3
D) 12π sm^3 E) $18v$ sm^3

66. Oturacağının radiusu 4 sm və doğuranı 5 sm olan konusun həcmini tapın.
A) 36π sm^3 B) 30π sm^3
C) 24π sm^3 D) 20π sm^3
E) 16π sm^3

67. Oturacağının radiusu 8 sm və doğuranı 10 sm olan konusun həcmini tapın.
A) 20π sm^3 B) 36π sm^3
C) 54π sm^3 D) 72π sm^3
E) 128π sm^3

68. Hündürlüyü 8 sm və doğuranı 10 sm olan konusun həcmini tapın.
A) 288π sm^3 B) 216π sm^3
C) 144π sm^3 D) 108π sm^3
E) 96π sm^3


69. Həcmi 60π sm^3, oturacağının radiusu 3 sm olan konusun hündürlüyünü tapın.
A) 25 sm B) 60 sm C) 15 sm
D) 63 sm E) 20 sm

70. Həcmi 60π sm^3, oturacağının radiusu 6 sm olan konusun hündürlüyünü tapın.
A) 12 sm B) 10 sm C) 8 sm
D) 6 sm E) 5 sm

71. Həcmi 32π sm^3, hündürlüyünü 6 sm olan konusun oturacağının radiusu tapın.
A) 16 sm B) 8 sm C) 6 sm
D) 5 sm E) 4 sm

72. Həcmi 25π sm^3 və hündürlüyü 3 sm olan konusun oturacağının radiusu tapın.
A) 9 sm B) 8 sm C) 6 sm
D) 5 sm E) 4 sm

73. Şəkildə verilənlərə görə konusun həcmini tapın.
A) 12π sm^3
B) 16π sm^3
C) 48π sm^3
D) 60π sm^3
E) 12π sm^3



74. Bərabərtərəfli konusun yan səthinin sahəsinin tam səthinin sahəsinə nisbətini tapın.
A) $\frac{3}{2}$ B) $\frac{2}{3}$ C) $\frac{9}{4}$ D) $\frac{2}{5}$ E) $\frac{5}{2}$

75. Bərabərtərəfli konusun oturacağının sahəsinin yan səthinin sahəsinə nisbətini tapın.
A) $\frac{3}{2}$ B) $\frac{1}{2}$ C) $\frac{9}{4}$ D) $\frac{1}{5}$ E) 3

76. Oturacağının sahəsi π m^2 olan bərabərtərəfli konusun həcmini tapın.
A) π m^3 B) $\sqrt{3}\,\pi$ m^3
C) $\frac{\sqrt{3}}{3}\pi$ m^3 D) 3π m^3
E) 5π m^3

77. Konusun ox kəsiyi tərəfi 4 sm olan bərabərtərəfli üçbucaqdır. Konusun yan səthinin sahəsini tapın.
A) π sm^2 B) 2π sm^2 C) 4π sm^2
D) 8π sm^2 E) 16π sm^2

78. Konusun doğuranı 8 m, ox kəsiyinin təpədəki bucağı 60°-dir. Konusun oturacağının sahəsini tapın.
A) 4π m^2 B) 16π m^2
C) 64π m^2 D) 16 m^2
E) 8 m^{2+}

Scanned with CamScanner

79. Konusun oturacağının radiusu 5 sm, ox kəsiyi düzbucaqlı üçbucaqdır. Kəsiyin sahəsini tapın.

A) 25 sm² B) $\frac{25}{2}$ sm² C) 16 sm²
D) 20 sm² E) 5 sm²

80. Konusun ox kəsiyinin perimetri 16 sm-dir. Konusun hündürlüyü 4 sm olarsa, həcmini tapın.

A) 18π sm³ B) 16π sm³
C) 10π sm³ D) 12π sm³
E) 14π sm³

81. Həcmi 80π sm³ olan slindrin oturacağının radiusu 4 sm olarsa, yan səthinin sahəsini tapən.

A) 40π sm² B) 50π sm²
C) 60π sm² D) 70π sm²
E) 80π sm²

82. Həcmi $166\frac{2}{3}\pi$ sm³ olan kürənin radiusunu tapın.

A) 8 sm B) 4 sm C) 5 sm
D) 2 sm E) 1 sm

83. Hündürlüyü 6 sm olan silindrin tam səthinin sahəsi 54π sm² olarsa, oturacağının radiusunu tapın.

A) 1 sm B) 2 sm C) 3 sm
D) 4 sm E) 5 sm

84. Doğuranı 4 sm, doğuranla oturacaq müstəvisi arasındakı bucağı 45° olan konusun həcmini tapın.

A) $\frac{16\pi}{3}$ sm³ B) $\frac{16\sqrt{2}\pi}{3}$ sm³
C) $\frac{8\sqrt{2}\pi}{3}$ sm³ D) $16\sqrt{2}\pi$ sm³
E) $\frac{8\pi}{3}$ sm³

85. Doğuranı 6 sm, doğuranla oturacaq müstəvisi arasındakı bucağı 30° olan konusun həcmini tapın.

A) 27π sm³ B) 18π sm³
C) $9\sqrt{3}\pi$ sm³ D) $27\sqrt{2}\pi$ sm³
E) $18\sqrt{2}\pi$ sm³

86. Tərəfi 6 sm olan bərabərtərəfli üçbucağın bir tərəfi ətrafında fırlanmasından alınan fiqurun tam səthinin sahəsini tapın.

A) 12π sm² B) $12\sqrt{3}\pi$ sm²
C) 18π sm² D) $18\sqrt{3}\pi$ sm²
E) $36\sqrt{3}\pi$ sm²

87. Tərəfləri 3 sm və 4 sm olan düzbucaqlının böyük tərəfi ətrafında fırlanmasından alınan fiqurun tam səthinin sahəsini tapın.

A) 24π sm² B) $18\sqrt{3}\pi$ sm²
C) 36π sm² D) $12\sqrt{3}\pi$ sm²
E) 42π sm²

88. Tam səthinin sahəsi 20π sm² olan silindrin hündürlüyü 3 sm olarsa, oturacağının radiusunu tapın.

A) 4 sm B) 3,5 sm C) 3 sm
D) 2,5 sm E) 2 sm

89. Həcmi 90π sm³ olan silindrin oturacağının radiusu 3 sm-dir. Silindrin yan səthinin sahəsini tapın.

A) 56π sm² B) 60π sm²
C) 75π sm² D) 80π sm²
E) 90π sm²

90. Silindrin daxilinə radiusu 3 sm olan kürə çəkilmişdir. Silindrin həcmini tapın.

A) 18π sm² B) 36π sm²
C) 48π sm² D) 54π sm²
E) 64π sm²

91. Oturacağının sahəsi 64π olan konusun doğuranı 10 -dur. Konusun həcmini hesablayın ($\pi = 3$).

92. Silindrin hündürlüyünü dəyişmədən, oturacağının radiusunu 5 dəfə artırsaq, həcmi neçə dəfə artar?

93. Səthinin sahəsi 64π sm² olan kürənin radiusu neçə sm olar?

94. Həcmi 288π sm³ olan kürənin diametri neçə sm-dir?

Scanned with CamScanner

95. Yan səthinin sahəsi 36π sm² olan silindrin hündürlüyü radiusundan iki dəfə çoxdur. Silindrin hündürlüyü neçə sm-dir?

96. Tam səthinin sahəsi yan səthinin sahəsindən 32π sm² böyük olan silindrin oturacağının diametri neçə sm olar?

97. Bərabərtərəfli silindrin həcmi 54p sm³ olarsa, radiusu neçə sm olar?

98. Doğuranı 5 sm və hündürlüyü 4 sm olan konusun tam səthinin sahəsinin yan səthinin sahəsinə olan nisbətini tapın.

99. Hündürlüyü $2\sqrt{3}$ olan bərabərtərəfli konusun tam səthinin sahəsinin π-yə olan nisbətini tapın.

100. Konusun yan səthinin sahəsinin oturacağının sahəsinə nisbəti $\sqrt{2}$ olarsa, ox kəsiyinin təpə bucağı neçə dərəcə olar?

101. Radiusu R və həcmi V olan kürə üçün uyğunluğu müəyyən edin.

1. $V=\frac{4}{3}\pi$ sm³
2. $V=\frac{32}{3}\pi$ sm³
3. $V=\frac{256}{3}\pi$ sm³

a. R = 5 sm
b. R = 4 sm
c. R = 3 sm
d. R = 2 sm
e. R = 1 sm

102. Radiusu R və səthinin sahəsi S olan kürə üçün uyğunluğu müəyyən edin.

1. R = 2 sm
2. R = 3 sm
3. R = 4 sm

a. $S = 8\pi$ sm²
b. $S = 12\pi$ sm²
c. $S = 16\pi$ sm²
d. $S = 36\pi$ sm²
e. $S = 64\pi$ sm²

103. Radiusu r olan n ədəd kürə əridilərək, R radiuslu böyük kürə əldə edilir. Uyğunluğu müəyyən edin.

1. r = 2 ; n = 27
2. r = 9 ; n = 8
3. r = 1; n = 64

a. R = 5
b. R = 6
c. R = 4
d. R = 3
e. R = 18

104. Yan səthinin sahəsi S, radiusu R olan bərabərtərəfli silindr üçün uyğunluğu müəyyən edin.

1. $S = 16\pi$ sm²
2. $S = 36\pi$ sm²
3. $S = 64\pi$ sm²

a. R = 2 sm
b. R = 3 sm
c. R = 4 sm
d. R = 6 sm
e. R = 8 sm

Scanned with CamScanner

105. Oturacağının diametri 10 m olan h hündürlüklü silindr üçün uyğunluğu müəyyən edin.

1. $h = 1$ m
2. $h = 2$ m
3. $h = 3$ m

a. $V = 25\pi m^3$

b. $V = 75\pi m^3$

c. $S_{tam} = 60\pi m^2$

d. $S_{tam} = 70\pi m^2$

e. $V = 9\frac{2}{3}\pi m^3$

106. Silindirlər üçün uyğunluğu müəyyən edin.

1. Ox kəsiyi kvadratdır.
2. Hündürlüyü radiusundan üç dəfə böyükdür.
3. Ox kəsiyinin diaqonalı oturacaqla 60°-li bucaq əmələ gətirir.

a. $S_{ot} : S_{yan} = 1:3$

b. $S_{ot} : S_{yan} = 1:4$

c. $S_{ot} : S_{yan} = 1:6$

d. $S_{ot} : S_{yan} = 1:4\sqrt{3}$

e. $S_{ot} : S_{yan} = 1:2$

107. Uyğunluğu müəyyən edin.

1. Kürənin həcmi
2. Konusun yan səthinin sahəsi
3. Silindrin həcmi

a. $S_{yan} = \pi R\ell$

b. $V = \frac{4}{3}\pi R^3$

c. $V = \pi RH^2$

d. $S_{yan} = 2\pi RH$

e. $V = \pi R^2 H$

108. Şəkildə verilmiş konus üçün uyğunluğu müəyyən edin. O oturacağın mərkəzidir.

1. $l = 10$ sm; $H = 8$ sm
2. $S_{ot} = 16p$ sm^2; $H = 3$ sm
3. $l = 13$ sm; $R = 12$ sm


a. $S_{ot} = 100$ sm^2

b. $V = 16\pi$ sm^3

c. $S_{tam} = 36\pi$ sm^3

d. $S_{ox\ kəs.} = 48$ sm^2

e. $S_{yan} = 156\pi$ sm^2



109. Şəkildə verilmiş silindr üçün uyğunluğu müəyyən edin.

1. $AB = 4$ sm; $AO_1 = 3$ sm
2. Ox kəsiyinin sahəsi 15 sm^2-dir.
3. $AO_1 + BO_2 = 10$ sm


a. $S_{yan} = 15\pi sm^2$

b. $S_{ot} = 25\pi sm^2$

c. $V = 12\pi sm^3$


d. $S_{tam} = 42\pi sm^2$

e. $V = 36\pi sm^3$




Scanned with CamScanner


110. Oturacağının mərkəzi O olan konuslar üçün uyğunluğu müəyyən edin.

1. 

ASB - bərabərtərəfli üçbucaqdır.

2. 

$SO : OB = 1 : \sqrt{3}$

3. 

Konusun təpə bucağı 90^0-dir.

a. $S_{ot} : S_{yan} = 2 : \sqrt{3}$

b. $S_{ot} : S_{yan} = \sqrt{2} : 2$

c. $S_{ox} : S_{yan} = \sqrt{3} : 2$

d. $S_{ot} : S_{yan} = 1 : 2$

e. $S_{ox} : S_{yan} = \sqrt{6} : 1$

TEST B

1. Katetləri 5 sm və 6 sm olan düzbucaqlı üçbucağın kiçik kateti ətrafında fırlanmasından alınan fiqurun həcmini tapın.
A) 50π sm^3 B) 60π sm^3
C) 30π sm^3 D) $6\sqrt{61}\,\pi$ sm^3
E) 25π sm^3

2. Konusun doğuranı $9\sqrt{2}$ sm, ox kəsiyinin təpə bucağı $90°$-dir. Konusun oturacağının sahəsini tapın.
A) 81π sm^2 B) 18π sm^2
C) 27π sm^2 D) 162π sm^2
E) 36π sm^2

3. Konusun hündürlüyü 4 sm, ox kəsiyinin sahəsi isə 12 sm^2-dır. Konusun həcmini tapın.
A) 12π sm^3 B) 6π sm^3
C) 10π sm^3 D) 24π sm^3
E) 36π sm^3

4. Silindrin ox kəsiyi kvadratdır. Oturacağının radiusu 2 sm-dir. Silindrin həcmini tapın.
A) 16π sm^3 B) 4π sm^3 C) 8π sm^3
D) 32π sm^3 E) $\frac{16\pi}{3}$ sm^3

5. Düzbucaqlının eni 6 sm, uzunluğu 10 sm olarsa, uzunluğu ətrafında fırlanmasından alınan fiqurun tam səthinin sahəsini tapın.
A) 120π sm^2 B) 192π sm^2
C) 120 sm^2 D) 192 sm^2
E) 72π sm^2

6. Bərabərtərəfli silindrin hündürlüyü h-dır. Yan səthinin sahəsini tapın.
A) $\frac{\pi h^2}{2}$ B) h^2 C) $\frac{\pi h^3}{4}$ D) $\frac{\pi h^2}{6}$ E) πh^2

7. Silindrin tam səthinin sahəsi 100p sm^2, oturacağının diametri 10 sm-dir. Silindrin həcmini tapın.
A) 160π sm^3 B) 150π sm^3
C) 125π sm^3 D) 120π sm^3
E) 60π sm^3

Scanned with CamScanner

8. Kvadratın tərəfi 9 sm-dir. Tərəfi ətrafında fırlanmasından alınan fiqurun səthinin sahəsini tapın.
A) 81π sm^2 B) 81 sm^2
C) 162 sm^2 D) 162π sm^2
E) 324π sm^2

9. Silindrin hündürlüyü 8 sm, oturacağının radiusu isə 3 sm-dir. Ox kəsiyinin diaqonalını tapın.
A) 11 sm B) 14 sm C) 10 sm
D) $\sqrt{73}$ sm E) $\sqrt{55}$ sm

10. Konusun yan səthinin sahəsi 21π sm^2, oturacağının radiusu isə 4 sm-ə bərabərdir. Konusun tam səthinin sahəsini tapın.
A) 37π sm^2 B) 37 sm^2
C) 40π sm^2 D) 25π sm^2
E) 45π sm^2

11. Konusun doğuranı $4\sqrt{2}$ sm və ox kəsiyinin təpə bucağı 90° isə, onun oturacağının sahəsini tapın.
A) 16π sm^2 B) 24π sm^2
C) 32π sm^2 D) $16\sqrt{2}\,\pi$ sm^2
E) $32\sqrt{2}\,\pi$ sm^2

12. Katetləri 5 sm və 12 sm olan üçbucağın kiçik katet ətrafında fırlanmasından alınan fiqurun həcmini tapın.
A) 24π sm^3 B) 240π sm^3
C) 120π sm^3 D) 12π sm^3
E) 120 sm^3

13. Ox kəsiyinin sahəsi 12 sm^2 olan silindrin oturacağının radiusu 3 sm-dir. Silindrin tam səthinin sahəsini tapın.
A) 30π sm^2 B) 24π sm^2
C) 42π sm^2 D) 32π sm^2
E) 18π sm^2

14. Silindrin ox kəsiyinin diaqonalı 10 sm və oturacağının radiusu 4 sm isə yan səthinin sahəsini tapın.
A) 16π sm^2 B) 32π sm^2
C) 24π sm^2 D) 12π sm^2
E) 48π sm^2

15. Bərabərtərəfli silindrin hündürlüyü h-dır. Yan səthini tapın.
A) $\frac{\pi h^2}{2}$ B) h^2 C) $\frac{\pi h^3}{4}$ D) $\frac{\pi h^2}{6}$ E) πh^2

16. Silindrin yan səthinin açılışı, uzunluğu 20 sm, hündürlüyü isə 15 sm olan düzbucaqlıdır. Silindrin səthinin sahəsini tapın.
A) $\left(300+\frac{100}{\pi}\right)$sm B) $\left(\frac{100+300\pi}{\pi}\right)$sm
C) $\left(300+\frac{200}{\pi}\right)$sm D) $\left(\frac{200(1+\pi)}{\pi}\right)$sm
E) $\left(\frac{150(1+2\pi)}{\pi}\right)$sm

17. Hündürlüyüsm $6\sqrt{2}$ olan konusun ox kəsiyi bərabərtərəfli üçbucaqdır. Konusun yan səthinin sahəsini tapın.
A) 48π sm^2 B) 16π sm^2
C) 64π sm^2 D) $8\sqrt{6}\pi$ sm^2
E) $24\sqrt{6}\pi$ sm^2

18. Konusun oturacağını radiusu 5 sm, ox kəsiyi isə düzbucaqlı üçbucaqlıdır. Kəsiyin sahəsini tapın.
A) 12,5 sm^2 B) 10,5 sm^2
C) 2,5 sm^2 D) 2,25 sm^2
E) 25 sm^2

19. Konusun ox kəsiyi tərəfi 5 sm olan bərabərtərəfli üçbucaqdır. Konusun yan səthinin sahəsini tapın.
A) $12{,}5\pi$ sm^2 B) $7{,}5\pi$ sm^2
C) 10π sm^2 D) 25π sm^2
E) π sm^2

20. Katetləri 3 sm və 4 sm olan düzbucaqlı üçbucağın kiçik kateti ətrafında fırlanmasından alınan fiqurun həcmini tapın.
A) 16π sm^3 B) 27π sm^3
C) 9π sm^3 D) 64π sm^3
E) $6{,}5\pi$ sm^3

Scanned with CamScanner

21. Doğuranı oturacaq müstəvisi ilə 60°-li bucaq əmələ gətirən konusun daxilinə radiusu 2 sm olan kürə çəkilmişdir. Konusun yan səthinin sahəsini tapın.

A) $\frac{16}{9}\pi$ sm^2 B) $\frac{9}{16}\pi$ sm^2

C) 9π sm^2 D) $16\sqrt{3}\pi$ sm^2

E) 24π sm^2

22. Kəsik konusun doğuranı 6 m və alt oturacaqla 30°-li bucaq əmələ gətirir. Ox kəsiyinin diaqonalı isə üst oturacaqla α bucağı əmələ gətirir. Kəsik konusun yan səthinin sahəsini tapın.

A) $36\pi ctg\alpha$ m^2 B) $12\pi ctg\alpha$ m^2

C) $72\pi ctg\alpha$ m^2 D) $18\pi ctg\alpha$ m^2

E) $24\pi ctg\alpha$ m^2

23. Silindrin hündürlüyü 4 sm-dir. Ox kəsiyinin diaqonalı oturacaq müstəvisi ilə 30°-li bucaq əmələ gətirir. Silindrin xaricinə çəkilmiş kürənin həcmini tapın.

A) $\frac{64\pi}{3}$ sm^3 B) $\frac{256\pi}{3}$ sm^3

C) $\frac{128\pi}{3}$ sm^3 D) $\frac{16\pi}{3}$ sm^3

E) 16π sm^3

24. Oturacağının radiusu 6 sm olan konus formalı qaba şəkildə göstərildiyi kimi su töküldmüşdür. Qabın hündürlüyü 6 sm, suyun səviyyəsi olarsa, h = 3 sm olarsa, qabdakı suyun həcmini tapın.


A) 63π sm^3

B) 12π sm^3

C) $\frac{12\pi}{97}$ sm^3

D) $\frac{12\pi}{97}$ sm^3

E) 21π sm^3



25. $y = |x|$ funksiyasının qrafikinin $[-1;2]$ parçasında OX oxu ətrafında fırlanmasından alınan fiqurun həcmini tapın.

A) 3π B) 4π C) 5π D) 8π E) 9π

26. Radiusu R olan bir kürənin səthinin, tili a olan kubun tam səthinin sahəsinə bərabər olması üçün aşağıdakı münasibətlərdən hansı doğrudur?

A) $\frac{a^2}{R^2}=\frac{3}{2\pi}$ B) $\frac{R^2}{a^2}=\frac{3}{4\pi}$

C) $\frac{R^2}{a^2}=\frac{3}{2\pi}$ D) $\frac{a^2}{R^2}=\frac{3}{4\pi}$

E) $\frac{R^2}{a^2}=\frac{4\pi}{3}$

27. Bərabərtərəfli üçbucağın tərəfi 6 sm-dir. Tərəfi ətrafında fırlanmasından alınan fiqurun səthinin sahəsini tapın.

A) 36π sm^3 B) $12\sqrt{3}\pi$ sm^3

C) $36\sqrt{3}\pi$ sm^3 D) $18\sqrt{3}\pi$ sm^3

E) $20\sqrt{3}\pi$ sm^3

28. Konusun yan səthinin sahəsi S, oturacağının sahəsi Q-dür. Doğuranla konusun hündürlüyü arasındakı bucağı tapın.

A) $\arcsin\frac{Q}{S}$ B) $\arcsin\frac{2Q}{S}$

C) $\arccos\frac{Q}{S}$ D) $\operatorname{arc\,tg}\frac{Q}{S}$

E) $\arccos(QS)$


29. Kəsik konusun doğuranı m-ə bərabərdir və alt oturacaqla 60°-li bucaq, ox kəsiyinin diaqonalı isə üst oturacaqla α bucağı əmələ gətirir. Kəsik konusun yan səthinin sahəsini tapın.

A) $\frac{\pi m^2\sqrt{3}\,ctg\alpha}{2}$ B) $\pi m^2\sqrt{3}\,ctg\alpha$

C) $\pi m^2\left(\frac{1}{2}+\frac{\sqrt{3}\,ctg\alpha}{2}\right)$ D) $\pi m^2\left(1+\frac{\sqrt{3}\,ctg\alpha}{2}\right)$

E) $2\sqrt{3}\pi m^2$

30. Şəkildə konusun daxilinə silindr çəkilmişdir. OA = AB olarsa, silindrin həcminin konusun həcminə nisbətini tapın.



A) $\frac{2}{9}$ B) $\frac{5}{2}$

C) $\frac{1}{3}$ D) $\frac{1}{2}$

E) $\frac{3}{8}$

Scanned with CamScanner

Qiymətləndirmə

1. Oturacağının radiusu 4 sm və hündürlüyü 3 sm olan silindrin tam səthinin sahəsini tapın.
A) 60π sm^2 B) 56π sm^2
C) 52π sm^2 D) 48π sm^2
E) 44π sm^2

2. Kürənin radiusu 6 sm olarsa, səthinin sahəsini tapın.
A) 24π sm^2 B) 36π sm^2
C) 56π sm^2 D) 72π sm^2
E) 144π sm^2

3. Bərabərtərəfli konusun yan səthinin sahəsinin oturacağının sahəsinə olan nisbətini tapın.
A) 2π B) π C) 2 D) $0{,}5\pi$ E) $\sqrt{3}$

4. Konusun ox kəsiyi tərəfi 6 sm olan bərabərtərəfli üçbucaqdır. Konusun tam səthinin sahəsini tapın.
A) 36π sm^2 B) 30π sm^2
C) 27π sm^2 D) 24π sm^2
E) 18π sm^2

5. Həcmi 80π sm^3 olan slindrin oturacağının radiusu 4 sm olarsa, yan səthinin sahəsini tapın.
A) 40π sm^2 B) 50π sm^2
C) 60π sm^2 D) 70π sm^2
E) 80π sm^2

6. Ən böyük çevrəsinin uzunluğu 6π sm olan kürənin həcmini tapın.
A) 27π sm^3 B) 36π sm^3
C) 42π sm^3 D) 48π sm^3
E) 54π sm^3

7. Yan səthinin açılışı yarımdairə olan konusun ox kəsiyinin təpə bucağını tapın.
A) 30° B) 45° C) 60° D) 90° E) 120°

8. Oturacağının radiusu 3 sm və hündürlüyü 4 sm olan silindrin həcmini tapın.
A) 12π sm^3 B) 18π sm^3
C) 24π sm^3 D) 36π sm^3
E) 48π sm^3

9. Həcmi 288π sm^3 olan kürənin radiusu neçə sm-dir?
A) 12 sm B) 9 sm C) 8 sm
D) 6 sm E) 4 sm

10. Yan səthinin sahəsi 80 sm^2 və həcmi 120 sm^3 olan silindrin oturacağının radiusunu tapın.
A) 2 sm B) 3 sm C) 4 sm
D) 6 sm E) 9 sm

11. Həcmi $10\frac{2}{3}\pi$ sm^3 olan kürənin radiusunu tapın.
A) 8 sm B) 4 sm C) 5 sm
D) 2 sm E) 1 sm

12. Oturacağının radiusu 2 sm olan konusun yan səthinin sahəsi 24π sm^2 olarsa, doğuranını tapın.
A) 12 sm B) 8 sm C) 6 sm
D) 4 sm E) 3 sm

13. Konusun oturacağının radiusunu dəyişmədən hündürlüyünü neçə dəfə artırmaq lazımdır ki, həcmi 18 dəfə artsın?
A) 36 B) 18 C) 12 D) 6 E) 3

14. Hündürlüyü 6 sm olan silindrin həcminin ox kəsiyinin sahəsinə nisbəti 2π sm olarsa, yan səthinin sahəsini tapın.
A) 96π sm^2 B) 72π sm^2
C) 60π sm^2 D) 48π sm^2
E) 36π sm^2

Scanned with CamScanner

15. Silindrlər üçün uyğunluğu müəyyən edin.

1. Ox kəsiyi kvadratdır.
2. Hündürlüyü radiusundan üç dəfə böyükdür.
3. Ox kəsiyinin diaqonalı oturacaqla 60°-li bucaq əmələ gətirir.

a. $S_{ot} : S_{yan} = 1 : 2\sqrt{3}$

b. $S_{ot} : S_{yan} = 1 : 4$

c. $S_{ot} : S_{yan} = 1 : 6$

A) 1-a, 2-b, 3-c B) 1-a, 2-c, 3-b
C) 1-b, 2-a, 3-c D) 1-b, 2-c, 3-a
E) 1-c, 2-b, 3-a

16. Silindrin oturacağının sahəsi 16π sm^2 və yan səthinin sahəsi 48π sm^2 olarsa, ox kəsiyinin diaqonalını tapın.

A) 15 sm B) 13 sm C) 12 sm
D) 10 sm E) 9 sm


17. Hipotenuzu 6 sm olan bərabəryanlı düzbucaqlı üçbucağın kateti ətrafında fırlanmasından alınan konusun oturacağının sahəsini tapın.

A) 12π sm^2 B) 18π sm^2
C) 24π sm^2 D) 30π sm^2
E) 36π sm^2

18. Silindrin ox kəsiyi tərəfi 6 sm olan kvadratdır. Bu silindrin həcmini tapın.

A) 72π sm^3 B) 60π sm^3
C) 54π sm^3 D) 48π sm^3
E) 36π sm^3

19. Şəkildə verilənlərə görə konusun yan səthinin sahəsini tapın.



A) 18π sm^2
B) 20π sm^2
C) 24π sm^2
D) 30π sm^2
E) 36π sm^2

20. Həcmi 16π sm^3 və hündürlüyü 3 sm olan konusun oturacağının radiusu tapın.

A) 8 sm B) 6 sm C) 4 sm
D) 3 sm E) 2 sm


Scanned with CamScanner

Statistika

TEST A

1. Dairəvi diaqrama görə A hissənin sahəsini tapın.

A) 100 sm²
B) 150 sm²
C) 120 sm²
D) 90 sm²
E) 200 sm²




2. Diaqramda bir ailənin aylıq xərcləri verilmişdir. Ailənin aylıq xərclərini hesablayın.

A) 550 AZN
B) 600 AZN
C) 650 AZN
D) 700 AZN
E) 625 AZN




3. Sütunlu diaqramda müəlliminin həftəlik girdiyi dərslərin sayı göstərilmişdir. Tək günlərdəki dərslərin sayı cüt günlərdəki dərslərin sayının hansı hissəsidir?

A) $\frac{14}{33}$ B) $\frac{17}{33}$
C) $\frac{5}{6}$ D) $\frac{5}{11}$
E) $\frac{6}{11}$




4. Diaqramda bir fermerin əkin sahəsindən illər üzrə yığdığı taxılın miqdarı verilmişdir. 2007-ci ildəki məhsulun miqdarı digər illərdəki məhsulun hansı hissəsini təşkil edir.

A) $\frac{13}{31}$ B) $\frac{5}{14}$
C) $\frac{10}{41}$ D) $\frac{9}{14}$
E) $\frac{10}{31}$




5. Xətti diaqramda maşının aylar üzrə getdiyi yolların uzunluğu göstərilmişdir. May ayında getdiyi yol digər aylarda getdiyi yolun neçə faizini təşkil edir?

A) 40 % B) 30 %
C) 50 % D) 25 %
E) 60 %



6. Diaqramda 125 suallıq imtahanda hər bənddən doğru cavabların sayları göstərilmişdir. E cavabı bütün cavabların neçə faizini təşkil edir?

A) 22 %
B) 25 %
13. $\int_1^4 \sqrt{x}\,dx$ inteqralını hesablayın.

A) $\frac{14}{3}$ B) $\frac{15}{4}$ C) 5 D) 4 E) $\frac{11}{3}$

14. Hesablayın: $\int_0^1 \left(\sqrt{x} - \sqrt[3]{x}\right)dx$

A) $\frac{11}{6}$ B) $-\frac{1}{12}$ C) 1 D) $\frac{2}{3}$ E) 11

15. Hesablayın: $\int_1^8 \frac{dx}{\sqrt[3]{x^2}}$

A) 1 B) 2 C) 3 D) 4 E) 5

16. $\int_1^{e^2} \frac{1}{x}dx$ inteqralını hesablayın.

A) 0 B) 2e C) 2 D) e^2 E) e^3

17. $\int\left(\frac{1}{x^3} + \frac{1}{x^2} + \frac{1}{x}\right)dx$ inteqralını hesablayın.

A) $\frac{1}{x^4} + \frac{1}{x^3} + \ln x + c$

B) $-\frac{1}{2x^2} - \frac{1}{x} + \ln x + c$

C) $-\frac{1}{2x^2} + \frac{1}{x} + \ln x + c$

D) $\frac{2}{x^2} + \frac{1}{x} + \ln x + c$

E) $3x^2 + 2x + c$

18. $\int_0^1 \frac{1}{x+1}dx$ inteqralını hesablayın.

A) 0 B) 1 C) 2 D) ln 2 E) –ln 2

19. Hesablayın: $\int_2^{14} \frac{1}{x \ln 7}dx$

A) 1 B) 3 C) –2 D) ln 7 E) $\frac{7}{\ln 7}$

20. $\int_1^5 \frac{3}{3x+1}dx = \ln k$ olarsa, k-nı tapın.

A) $\sqrt[3]{4}$ B) 4 C) 12 D) 64 E) 172

21. $\int_0^1 (1 - e^x)dx$ inteqralını hesablayın.

A) 1 – e B) 2 – e C) e – 2
D) –e E) 1

22. $\int_0^1 (e^x + 1)dx = ?$

A) 1 B) e^3 C) e D) 0 E) ln3

23. $\int\left(e^x - \frac{1}{x}\right)dx = ?$

A) $e^x + \frac{1}{x} + C$ B) $e^x - \ln|x| + C$

C) $e^x x - \frac{2}{x^2} + C$ D) $e^x + \ln|x| + C$

E) $-e^x + \ln|x| + C$

24. $\int e^{5x}dx$ inteqralını tapın.

A) $5e^{5x} + c$ B) $\frac{1}{5}e^{5x} + c$

C) $e^{5x} + c$ D) $\frac{1}{5}e^{-5x} + c$

E) $-\frac{1}{5}e^{5x} + c$

25. $\int 6^{5x+3}dx$ inteqralını hesablayın.

A) $\frac{6^{x^5+3}}{5\ln 6} + c$ B) $\frac{6^{x^5+3}}{\ln 6} + c$

C) $\frac{6^{5x+3}}{5\ln 6} + c$ D) $\frac{6^{5x}}{\ln 6} + c$

E) $6^{x^5+3} + c$

Scanned with CamScanner

26. Hesablayın: $\int 5^{3x+1}dx$

A) 5^x+c B) $\frac{5^{3x+1}}{3}+c$

C) $\frac{5^{3x}}{x}+c$ D) $\frac{5^{3x+1}}{\ln 5}+c$

E) $\frac{5^{3x+1}}{3\ln 5}+c$

27. $\int \left(2e^x-\cos x+5\right)dx=?$

A) $e^x-\sin x+x+C$ B) $e^{2x}-\cos x+C$

C) $2e^x-\sin x+5x+C$ D) $3e^x+tgx+C$

E) $e^x+ctgx+C$

28. Hesablayın: $\int\left(\sin^2\frac{x}{4}+\cos^2\frac{x}{4}\right)dx$

A) $2x+C$ B) $x+C$

C) $\sin\frac{x}{4}+C$ D) $\cos\frac{x}{2}+\sin\frac{x}{2}+C$

E) $\cos\frac{x}{4}+\sin\frac{x}{4}+C$

29. Hesablayın: $\int_0^{\frac{\pi}{2}}(2x+\sin x)dx$

A) $\frac{\pi^2}{4}-1$ B) $\frac{\pi^2}{8}-1$ C) $\frac{\pi^2}{4}+1$

D) $\frac{\pi^2}{4}+2$ E) $\frac{\pi^2}{4}-2$

30. $f(x)=\sin\frac{x}{3}$ funksiyasının ibtidai funksiyasını tapın.

A) $y=3\cos\frac{x}{3}+c$ B) $y=-3\cos\frac{x}{3}+c$

C) $y=\frac{1}{3}\cos\frac{x}{3}+c$ D) $y=-\frac{1}{3}\cos\frac{x}{3}+c$

E) $y=\frac{1}{3}\cos\frac{x}{3}+c$

31. Hesablayın: $\int_0^{\frac{\pi}{3}}3\sin 3xdx$

A) 2 B) 0 C) 1 D) –1 E) –2

32. Hesablayın: $\int_0^{\frac{\pi}{4}}(\sin 2x+\cos 2x)dx$

A) 2 B) 1 C) 3 D) 0,5 E) 0,25

33. Hesablayın: $\int_0^{\frac{\pi}{4}}(\sin x+\cos x)^2dx$

A) $\frac{\pi-2}{4}$ B) $\frac{\pi+1}{2}$ C) $\frac{\pi+1}{4}$

D) $\frac{\pi}{4}$ E) $\frac{\pi+2}{4}$

34. $f(x)=\frac{1}{\sqrt{4x+5}}$ funksiyasının ibtidai funksiyasını tapın.

A) $\frac{1}{2}\sqrt{4x+5}+C$ B) $-\frac{1}{2}\sqrt{4x+5}+C$

C) $\frac{11}{5}\sqrt{4x+5}+C$ D) $\frac{4}{5}\sqrt{4x+5}+C$

E) $\sqrt{4x+5}+C$

35. $y=x^2, y=4, x=-1$ və $x=2$ xətləri ilə hüdudlanmış fiqurun sahəsini hesablayın.

A) 9 B) 15 C) $\frac{2}{3}$ D) $\frac{1}{3}$ E) 6

36. $y=x^2$ əyrisi $y=0$ və $x=2$ xətləri ilə məhdudlanmış sahəni hesablayın.

A) 4 B) 8 C) $\frac{4}{3}$ D) $\frac{8}{3}$ E) $\frac{5}{3}$

37. $y=x^2$ və $y=\sqrt{x}$ funksiyalarının qrafiklərinin məhdudlandırdığı sahəni hesablayın.

A) $\frac{2}{3}$ B) 1 C) 2 D) $\frac{1}{3}$ E) 3

Scanned with CamScanner

38. $y = x^2$ parabolası ilə $y = 1$ düz xəttinin məhdudlaşdırdığı müstəvi hissəsinin sahəsini hesablayın.

A) 2 B) $\frac{4}{3}$ C) $\frac{2}{3}$ D) $\frac{1}{3}$ E) 3

39. $y=3x-x^2$ və $y=0$ xətləri ilə hüdudlanmış fiqurun sahəsini tapın.

A) 2 B) 4,5 C) $4\frac{1}{3}$ D) 3,5 E) 9

40. $y=2x^2$ əyrisi və $y=x$ düz xətti ilə məhdudlanmış sahəni tapın.

A) $\frac{1}{64}$ B) $\frac{1}{42}$ C) $\frac{1}{36}$ D) $\frac{1}{24}$ E) $\frac{1}{18}$

41. $\int_{-1}^{3}|x-2|dx$ inteqralını hesablayın.

A) –1 B) 0 C) 1 D) 3 E) 5

42. $\int_{1}^{e}\frac{2x^2+x-1}{x^2}dx$ inteqralını hesablayın.

A) $\frac{2e^2-2e+1}{e}$ B) $\frac{2e^2-e+1}{e}$

C) $\frac{e^2+e+1}{e}$ D) $\frac{2e^2+e-2}{e}$

E) $\frac{2e^2+2e-1}{e}$

43. $\int_{1}^{2}\frac{3x^2+1}{x^2}dx$ inteqralını hesablayın.

A) 5 B) 7,5 C) 9 D) 3,5 E) 12

44. $\int_{0}^{1}(3x^2+2x+1)dx$ ifadəsinin qiymətini hesablayın.

A) 5 B) 4 C) 3 D) 2 E) 1

45. $\int_{1}^{e}(2x-\frac{1}{x})dx$ inteqralını hesablayın.

A) $2e^2$ B) $2e^2-1$ C) e^2+2
D) $e+1$ E) e^2-2

46. $\int_{0}^{1}(2x^3+3x^2+c)dx=5,5$ tənliyindən c-ni tapın.

A) 1 B) 2 C) 3 D) 4 E) 5

47. $\int_{0}^{1}(3x^2+2x+c)dx=9$ tənliyindən c-ni tapın.

A) 1 B) 3 C) 5 D) 7 E) 9

48. $\int_{-2}^{0}\frac{x^2-3x-4}{x+1}dx$ inteqralını hesablayın.

A) –10 B) –7 C) –2 D) 0 E) 8

49. $f(x)=\int_{x^2}^{x^3}(2t+3)dt$ olarsa, $f(1)=?$

A) 5 B) 0 C) 13 D) –5 E) 3

50. Hesablayın: $\int_{0}^{1}\frac{x^2}{2}dx$.

A) $\frac{1}{6}$ B) $\frac{1}{3}$ C) $\frac{1}{2}$ D) 1 E) 2

51. Hesablayın: $\int_{0}^{1}(9x^2-2x)dx$

52. Hesablayın: $\int_{1}^{2}\frac{1}{x^2}dx$

53. Hesablayın: $\int_{0}^{6}(x-4)^2dx$

54. $\int_{0}^{\frac{\pi}{2}}(\cos x-\sin x)dx=?$

Scanned with CamScanner

55. Hesablayın: $\int_0^8 \frac{x\,dx}{\sqrt[3]{x}}$

56. Uyğunluğu müəyyən edin.

1. $\int \frac{dx}{x-3}$
2. $\int \frac{x-3}{x} dx$
3. $\int \frac{1-\sqrt{x}}{\sqrt{x}} dx$

a. $\ln|x|-3+C$ b. $\ln|x-3|+C$
c. $2\sqrt{x}-x+C$ d. $x-3\ln|x|+C$
e. $\ln\sqrt{x}-x+C$

57. $M=\int_0^a (2x-3)\,dx$ inteqralı üçün uyğunluğu müəyyən edin.

1. $M=-2$
2. $M=4$
3. $M=0$

a. $a=3$ b. $a=2$
c. $a=5$ d. $a=4$
e. $a=1$

58. Uyğunluğu müəyyən edin.

1. $\int_1^2 \frac{2x^3+1}{x^2} dx$
2. $\int_0^2 (x-1)(x+2)dx$
3. $\int_{-1}^1 (x^2+2x-1)dx$

a. $\frac{4}{3}$ b. $-\frac{4}{3}$
c. $-\frac{2}{3}$ d. $\frac{7}{2}$
e. $\frac{2}{3}$

59. $f(x)=x^2$ funksiyasının ibtidai funksiyasının qrafiki A nöqtəsindən keçir. Uyğunluğu müəyyən edin.

1. A(2; 3)
2. A(1; 2)
3. A(1; 1)

a. $F(x)=\frac{1}{3}x^3-\frac{1}{3}$
b. $F(x)=\frac{1}{3}x+\frac{2}{3}$
c. $F(x)=\frac{1}{3}x^3+\frac{2}{3}$
d. $F(x)=\frac{1}{3}x^3+\frac{5}{3}$
e. $F(x)=\frac{1}{3}x^3+\frac{1}{3}$

60. Funksiyaların ibtidai funksiyaları üçün uyğunluğu müəyyən edin.

1. $f(x)=\sin\frac{x}{3}$
2. $f(x)=\sin 3x$
3. $f(x)=3\cos x$

a. $F(x)=\frac{1}{3}\cos\frac{x}{3}+5$
b. $F(x)=-3\cos\frac{x}{3}+6$
c. $F(x)=3\sin x+1$
d. $F'(x)=\sin 3x$
e. $F(x)=-3\cos\frac{x}{3}+2$

Scanned with CamScanner

TEST B

1. $\int (ax+b)^n dx = ?$

A) $\frac{(ax+b)^{n+1}}{a(n+1)}+c$ B) $\frac{ax+b}{\ln a}+c$

C) $\frac{(ax+b)^n}{an}+c$ D) $\frac{(ax+b)^n}{a(n+1)}+c$

E) $\frac{(ax+b)^{n+1}}{\ln a(n+1)}+c$

2. $f(x)=\int_0^x \sqrt{t}\,dt = 2\sqrt{3}$ olarsa, x-i tapın.

A) 3 B) 2 C) 4 D) $2\frac{1}{2}$ E) 5

3. $\int_x^{x+1} 2y\,dy$ funksiyasının qrafiki və $y = x^2 + 1$ parabolası ilə hüdudlanmış fiqurun sahəsini tapın:

A) $\frac{3}{4}$ B) $\frac{4}{3}$ C) $\frac{3}{5}$ D) 2 E) $\frac{3}{8}$

4. Hesablayın: $\int_{-1}^{0} \sqrt[3]{2x+1}dx$

A) $\sqrt[3]{8}$ B) $3\sqrt[3]{3}$ C) 0

D) $-\sqrt[3]{8}$ E) 1

5. Tənliyi həll edin və köklərinin cəmini tapın.

$\int_0^x (y-2)dy = -\frac{3}{2}$


A) −3 B) −4 C) 4 D) 2 E) 3

6. Şəkildəki parabolanın koordinat oxları ilə əmələ gətirdiyi hissənin sahəsini hesablayın.

A) $\frac{8}{3}$ B) $\frac{25}{3}$

C) $\frac{4}{3}$ D) 8

E) $\frac{16}{3}$



7. $y=x^2+4x+4$ və $y=4x+5$ xətləri ilə hüdudlanmış fiqurun sahəsini hesablayın.

A) $1\frac{1}{3}$ B) 1 C) 2 D) $2\frac{2}{3}$ E) $\frac{2}{3}$

8. Hesablayın: $\int_0^2 \frac{dx}{3-x}$

A) ln2 B) 1 C) ln3 D) 2 E) e

9. $\int_0^1 (3x^2+4x+C)dx = 10$ tənliyindən C-ni tapın.

A) 6 B) 7 C) 8 D) 4 E) −8

10. $\int_0^1 (\sqrt[4]{x^3} - \sqrt{x})dx = ?$

A) $-\frac{2}{21}$ B) $\frac{5}{21}$ C) $\frac{7}{11}$

D) $\frac{21}{5}$ E) $-\frac{5}{21}$

11. $\int 4\sin^3 x \cos x\,dx = ?$

A) $\sin^3 x + c$ B) $\frac{\sin^3 x}{3}+c$

C) $\sin^4 x + c$ D) $\frac{\sin^4 x}{4}+c$

E) $\frac{\sin^4 x}{3}+c$

12. $\int [f(x)+2x^2]dx = x^3+x^2+x$ olarsa, $f'(-2) = ?$

A) 2 B) −2 C) 1 D) −1 E) 0

13. Hesablayın: $\int_0^{\pi} \sin x e^{\cos x} dx$


A) $\frac{1-e^2}{e}$ B) e^2

C) $\frac{e^2-1}{e}$ D) $\frac{1}{e}$ E) $-\frac{1}{e}$

14. Hesablayın: $\int_{-\frac{\pi}{2}}^{\frac{\pi}{2}} |\sin x|dx$

A) 0 B) 2 C) $\frac{\pi}{2}$ D) π E) $-\frac{\pi}{2}$

Scanned with CamScanner

15. 

Şəklə əsasən, ştrixlənmiş hissənin sahəsini tapın.


A) $2\sqrt{2}$ B) 2
C) $2\sqrt{2}-2$ D) $\sqrt{2}+1$ E) 1

16. $\int xf(x)dx = 3x^2 - 2x^3$ olarsa, $\int_0^1 f(x)dx = ?$

A) –3 B) –2 C) 3 D) 2 E) 6

17. Ştrixlənmiş hissənin sahəsini tapın.

A) 4,5 – ln2
B) 3,5 – ln2
C) 2,5 + 2ln2
D) 7,5 – 4ln4
E) 7,5 + 4ln4



18. $\int_{\frac{\pi}{6}}^{\frac{\pi}{2}} ctgxdx$ -i hesablayın.

A) 2 B) ln2 C) –ln2
D) ln2 + 5 E) $\ln\frac{\pi^2}{12}$

19. $\int x\sqrt{1-x^2}dx$ -i hesablayın.

A) $-\frac{1}{3}\sqrt{(1-x^2)^3}+c$ B) $\sqrt[3]{1-x^2}+c$
C) $\sqrt{(1-x^2)^3}+c$ D) $\frac{1}{9}\sqrt{1-x^2}+3x+c$
E) $\sqrt{1-x^2}+7x+c$

20. $\int \frac{dx}{\sqrt{4-x^2}}$ inteqralını hesablayın.

A) $\arccos\frac{x}{2}+c$ B) $arctg\frac{x}{2}+c$
C) $arcctg\frac{x}{2}+c$ D) $\arcsin\frac{x}{2}+c$
E) $\arccos x + c$

21. $\pi < 2x < \frac{3\pi}{2}$, $F(x) = \int\sqrt{1+\cos 2x}\,dx$ və F(0) = 2 olarsa, $F\left(\frac{\pi}{4}\right)$-ü tapın.

A) 0,5 B) 1 C) 2,5 D) 3 E) 3,5

22. $\int_1^4 f(x)dx = 12$ olarsa, $\int_3^6 f(x-2)dx$ inteqralını hesablayın.

A) 12 B) 10 C) 8 D) 6 E) 4


23. $\int_2^6 f(x)dx = 24$ olarsa, $\int_2^6 f(2x)dx$ inteqralını heablayın.

A) 48 B) 36 C) 24 D) 12 E) 6

24. $y = e^x$ funksiyasının qrafiki, $x = \ln 3$ düz xətti və koordinat oxları arasında qalan fiqurun sahəsini tapın.

A) e^3
B) e
C) 2
D) 1
E) e^{-2}

25. Şəkildə y = f(x) funksiyasının qrafiki və Ox oxunu kəsdiyi nöqtələrin absisləri verilmişdir.



Rənglənmiş hissələrin sahələri cəmi 24 kvadrat vahid və $\int_{-5}^{6} f(x)dx = 16$ olarsa, $\int_0^2 f(x)dx = ?$

A) –4
B) –2
C) 2
D) 4
E) 6

Scanned with CamScanner

Qiymətləndirmə

1. $y = \cos x + \sin x$ funksiyasının ibtidai funksiyasını tapın.
   A) $\sin x + \cos x + c$
   B) $-\sin x + \cos x + c$
   C) $\sin x - \cos x + c$
   D) $-\sin x - \cos x + c$
   E) $-\sin x - \cos x - c$

2. $y = 2x + 6$ funksiyasının A(1; 1) nöqtəsindən keçən ibtidai funksiyasını tapın.
   A) $x^2 + 6x - 6$
   B) $2x^2 + 6x - 7$
   C) $x^2 + 3x - 2$
   D) $2x^2 + 3x - 4$
   E) $2x - 1$

3. $\int_0^1 (12x^2 - 2x)dx$ inteqralını hesablayın.
   A) 2 B) $\frac{1}{2}$ C) 3 D) $\frac{1}{3}$ E) 6

4. $\int_1^e \frac{1}{x}dx$ inteqralını hesablayın.
   A) 1 B) e C) e – 1
   D) e + 1 E) 0

5. $x = 0$, $x = 1$ düz xətləri ilə $y = 3x^2$ və $y = 6x$ funksiyalarının qrafikləri arasında qalan hissənin sahəsini tapın.
   A) 1 B) 1,5 C) 2 C) 2,5 E) 3

6. $x = 2, x = 4, y = 0$ düz xətləri və $y = x^3$ funksiyasının qrafiki arasında qalan hissənin sahəsini tapın.
   A) 68 B) 64 C) 60 D) 56 E) 52

7. $y = 3x^2$ parabolası ilə $y = 3$ düz xəttinin məhdudlaşdırdığı fiqurun sahəsini hesablayın.
   A) 1 B) $\frac{4}{3}$ C) $\frac{2}{3}$ D) 4 E) 6

8. $y = x^3$ və $y = x$ funksiyalarının qrafikləri arasında qalan hissənin sahəsini tapın.
   A) $\frac{3}{4}$ B) $\frac{2}{3}$ C) $\frac{1}{2}$ D) $\frac{1}{3}$ E) $\frac{1}{4}$

9. $\int e^{0,5x}dx$ inteqralını tapın.
   A) $0,5e^{0,5x} + c$
   B) $e^{0,5x} + c$
   C) $2e^{0,5x} + c$
   D) $0,5e^{0,5x} + 0,5c$
   E) $2e^{2x} + c$

10. $\int_0^{\frac{\pi}{2}} \cos x dx$ inteqralını hesablayın.
    A) 2 B) 1 C) 0 D) –1 E) –2

11. $\int_{-1}^{0} \frac{3}{x+2}dx$ inteqralını hesablayın.
    A) ln9 B) ln8 C) ln6
    D) ln3 E) ln2

12. $\int_0^1 (2x + k)dx = 7$ olarsa, k-nı tapın.
    A) 8 B) 7 C) 6 D) 5 E) 4

13. $\int_4^9 \frac{1}{\sqrt{x}}dx$ inteqralını hesablayın.
    A) 1 B) 2 C) 3 D) 4 E) 5

Scanned with CamScanner

14. $\int_0^1 f(x)dx = 3$ olarsa, $\int_0^1 (x + f(x))dx$-i hesablayın.

A) 3,5 B) 4 C)4,5 D) 5 E) 5,5

15. $y = \text{ctg}x$ funksiyasının ibtidai funksiyasını tapın.

A) $\ln|\cos x| + c$
B) $-\ln|\cos x| + c$
C) $\ln|\sin x| + c$
D) $-\ln|\sin x| + c$
E) $\ln|\cos 2x| + c$

16. $y = 4\sin^2 x$ funksiyasının ibtidai funksiyasını tapın.

A) $2x - 2\sin 2x + c$
B) $2x + \sin 2x + c$
C) $x + \sin 2x + c$
D) $2x - \sin 2x + c$
E) $x - \sin 2x + c$

17. $\int_{-1}^{1} 3\sin 3x dx$ inteqralını hesablayın.

A) 3 B) 1 C) 0 D) –1 E) –3

18. $\int tg^2 x dx$ inteqralını tapın.

A) $\text{tg}x + x + c$
B) $-\text{tg}x + x + c$
C) $-\text{tg}x - x + c$
D) $\text{tg}x - x + c$
E) $\text{tg}x + c$

19. Absisi x olan nöqtədə çəkilən toxunanının bucaq əmsalı $2x - 1$ olan və qrafiki (3; 8) nöqtəsindən keçən funksiyanı tapın.

A) $f(x) = x^2 - x + 8$
B) $f(x) = 2x + 2$
C) $f(x) = x^2 + x - 4$
D) $f(x) = 2x^2 - 2x - 4$
E) $f(x) = x^2 - x + 2$

20. $\int_{\frac{\pi}{4}}^{\frac{\pi}{3}} \frac{2 \cdot \text{tg}x}{\cos^2 x} dx$ inteqralını hesablayın.


A) 3 B) 2 C) $2\frac{1}{3}$ D) $\frac{2}{3}$ E) $\frac{1}{3}$

Scanned with CamScanner

Sınaq 10 - Qəbul

1. ƏBOB(A; 6) = ƏKOB(6; B) olarsa, AB hasilinin ən kiçik qiymətini tapın.
A) 36 B) 18 C) 12 D) 6 E) 1

2. DC parçası ABC üçbucaq müstəvisinə perpendikulyardır. AB ⊥ BC, AB = BC, BE = 2AE, $AC = 6\sqrt{2}$ və $DC = \sqrt{29}$ olarsa, DE-ni tapın.
A) 9
B) 10
C) 12
D) 13
E) 15



3. $a > 0$ olarsa, $\sqrt{a+9+6\sqrt{a}} - \frac{a}{\sqrt{a}}$ ifadəsini sadələşdirin.
A) $\sqrt{3}$ B) a C) $a\sqrt{3}$ D) 3 E) 3a

4. $\lim\limits_{x\to 0} \frac{\sin 1{,}5x}{x}$-i hesablayın.
A) 0 B) 1 C) 0,5 D) 1,5 E) $\frac{2}{3}$

5. a, b və c rəqəmlərdir. $0{,}4(a5c) = 0{,}ca(b47)$ olarsa, $a - b + c$ ifadəsinin qiymətini tapın.
A) 2 B) 5 C) 6 D) 7 E) 8

6. Başlanğıcı A(–1; 2) və sonu B(1; 6) nöqtəsində olan AB vektorunun uzunluğunu tapın.
A) $2\sqrt{5}$ B) $2\sqrt{6}$ C) 5
D) $3\sqrt{3}$ E) 6

7. a-nın hansı qiymətlərində $2a - 12$ ifadəsi müsbət qiymətlər alır?
A) (6; +∞) B) (0; +∞) C) (–12; +∞)
D) (–∞; 0) E) (–∞; 6)

8. Silsilə vuruğu q olan sonsuz həndəsi silsilənin cəmi $S = \frac{1}{q - q^2}$ olarsa, bu silsilənin q-yə bərabər olan həddinin nömrəsini tapın.
A) 1 B) 2 C) 3 D) 4 E) 5


9. $(A \setminus B) \cup (B \setminus A)$ çoxluğu aşağıdakılardan hansına bərabərdir?
A) $(A \cup B) \setminus A$ B) $(A \cup B) \setminus B$
C) $A \setminus (A \cup B)$ D) $A \cap B$
E) $(A \cup B) \setminus (A \cap B)$

10. Torbada n sayda qara və 2 ağ kürəcik var. Torbadan qaytarmadan ardıcıl çıxarılan iki kürəcikdən ikisinin də qara olması ehtimalı 0,4 olarsa, n-i tapın.
A) 2 B) 3 C) 4 D) 5 E) 6

11. Qabarıq dördbucaqlının xarici bucaqları 3 : 4 : 5 : 6 nisbətində olarsa, ən kiçik xarici bucağını tapın.
A) 36° B) 48° C) 54° D) 60° E) 72°

12. $\int_0^1 (2x + c)\,dx = 2$ olarsa, c-ni tapın.
A) –2 B) –1 C) 0 D) 1 E) 2

13. Şəklə əsasən, x-i tapın.
A) $2\sqrt{7}$ B) $4\sqrt{2}$
C) $4\sqrt{3}$ D) $6\sqrt{2}$
E) $6\sqrt{3}$



14. p-nin hansı qiymətində $f(x) = x^2 + px + 3$ funksiyasının qrafiki A(1; 7) nöqtəsindən keçər?
A) 1 B) 2 C) 3 D) 4 E) 5

15. Düzgün altıbucaqlı prizmanın oturacağının tərəfi 2 sm, yan tili 8 sm olarsa, həcmini tapın.
A) $48\sqrt{3}$ sm³ B) $42\sqrt{3}$ sm³ C) $38\sqrt{3}$ sm³
D) $32\sqrt{3}$ sm³ E) $28\sqrt{3}$ sm³

16. A(2; 3) nöqtəsi $A(x; y) \to A'(x + 2; y - 1)$ qaydası ilə A′ nöqtəsinə çevrilmişdir. A′ nöqtəsinin koordinatlarının cəmini tapın.
A) 8 B) 7 C) 6 D) 5 E) 4

17. k-nın hansı qiymətində $kx - 12 = 0$ tənliyinin kökü 3-ə bərabərdir?
A) 3 B) 4 C) 6 D) 8 E) 12


18. Tərəfləri 2 : 3 nisbətində olan düzbucaqlının perimetri 40 sm olarsa, sahəsini tapın.
A) 24 sm² B) 36 sm² C) 48 sm²
D) 72 sm² E) 96 sm²

19. $\log_3(x + 2) - \log_3 x = \log_3 2$ tənliyini həll edin.
A) 1 B) 2 C) 3 D) 4 E) 5

Scanned with CamScanner

20. Düzgün 8-bucaqlının bir xarici bucağını tapın.
A) 72° B) 60° C) 54° D) 45° E) 40°

21. Şəkildəki tərəzilər tarazlıqdadır. △ cisminin kütləsi 1 kq olarsa, ○ cisminin kütləsini tapın.




A) 0,5 kq
B) 1 kq
C) 1,5 kq
D) 2 kq
E) 2,85 kq

22. sin40°-ni kosinusla ifadə edin.
A) cos20° B) cos40° C) cos50°
D) cos60° E) cos80°

Cavablarının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar

23. İki ədəddən birinin 25 %-i digərinin 45 %-nə bərabərdir. Bu ədədlərin böyüyü 90 olarsa, kiçiyini tapın.

24. A, B, C və D nöqtələri şəkildəki kimi bir-birinə toxunan çevrələrin mərkəzləri, ABCD kvadrat və çevrələrin uzunluqları cəmi 96π olarsa, P_{ABCD}-ni tapın.



25. a tam ədədinin tərsinin 3 misli də tam ədəd olarsa, a-nın mümkün qiymətlərinin sayını tapın.

26. $(2x + A)^2 = B + 12xy + C$ olarsa, A, B və C birhədlilərinin əmsalları cəmini tapın.

27. Düz xətt üzərində qeyd olunmuş n sayda nöqtə üçün uyğunluğu müəyyən edin.

1. $n = 3$
2. $n = 4$
3. $n = 5$

a. alınan şüaların sayı 6-ya bərabərdir
b. alınan parçaların sayı 6-ya bərabərdir
c. nöqtələrin sayı alınan şüaların sayına bərabərdir
d. alınan şüaların sayı alınan parçaların sayına bərabərdir
e. alınan parçaların sayı nöqtələrin sayına bərabərdir

Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlar


28. $n(A \setminus B) = 5x - 17$, $n(B \setminus A) = 2x - 5$, $4 \cdot n(A \cup B) = 7 \cdot n(A \cap B)$ və $n(A \setminus B) = n(B \setminus A)$ olarsa, $n(A \cup B)$-ni tapın.

29. Perimetri 64 sm, sahəsi 192 sm^2 və tərəflərinin hasili 9600 sm^3 olan üçbucağın daxilinə və xaricinə çəkilmiş çevrələrin radiuslarının cəmini tapın.

30. İsbat edin ki, $a + b + c$ cəmi 9-a qalıqsız bölündükdə üçrə-qəmli $\overline{abc}$ ədədi də 9-a qalıqszı bölünür

Situasiya

Şəkildə inşası aparılan parkın planı verilmişdir. Park radiusu 4 m olan dairəvi daşlardan, onların aralarındakı çəmənlərdən, besedkalardan və ağaclardan ibarətdir. Yeni inşa olunan parkda son tamamlama işləri olaraq çəmən salma və rənglənmə işləri qalır. Bu qalan işlər, ümumi işin 15 %-ni təşkil edir.



28. Şəkildəki bir-birinə toxunan üç bərabər çevrə arasında yerləşən (çəmən salmaq düşünülən) hissənin sahəsini tapın (sm^2-lə).

29. Rənglənmə işləri üçün boyaya boyanın 12 %-i qədər həlledici əlavə olunur. 1 m^2 sahəni boyamaq üçün 0,35 litr həlledici əlavə edilmiş boya nəzərdə tutularsa, 5 litr boyaya həlledici əlavə etdikdən sonra neçə kvadrat metr sahəni boyamaq olar?

30. Parkın ümumi işini 60 günə bitirə bilən I qrup və 120 günə bitirə bilən II qrup birlikdə çalışsalar, qalan işləri neçə günə bitirərlər?

Scanned with CamScanner

Sınaq 11 - Qəbul

1. $\frac{k}{A}$ düzgün kəsri k-nın hər bir natural qiymətində sonsuz dövrü onluq kəsr olarsa, A aşağıdakılardan hansı ola bilər?
A) 10 B) 12 C) 16 D) 18 E) 21

2. Düzgün çoxbucaqlının bir təpədən çıxan iki ən kiçik diaqonalı arasında qalan bucaq 140° olarsa, bu çoxbucaqlının tərəflərinin sayını tapın.
A) 20 B) 18 C) 15 D) 12 E) 10

3. $\int_0^{\frac{\pi}{4}} \frac{1}{\cos^2 x}dx$ inteqralını hesablayın.
A) $\sqrt{3}$ B) 1 C) $\frac{\sqrt{2}}{2}$ D) $\frac{\sqrt{3}}{3}$ E) $\frac{1}{2}$

4. $y=\frac{x-3}{x-6}$ funksiyasının təyin oblastını tapın.
A) $(-\infty; 0)\cup(0; +\infty)$ B) $(-\infty; 3)\cup(3; +\infty)$
C) $(-\infty; 2)\cup(2; +\infty)$ D) $(-\infty; 6)\cup(6; +\infty)$
E) $(-\infty; 4)\cup(4; +\infty)$

5. A, B, C və D nöqtələri düz xətt üzərində ardıcıl qeyd olun-muşdur. AC = a, BD = b və AD = c olarsa, BC parçasını a, b və c ilə ifadə edin.
A) $c-a-b$ B) $a+b-c$
C) $2c-a-b$ D) $2a+2b-c$
E) $a+b-0{,}5c$

6. $4(x+1)\geq x+19$ bərabərsizliyini həll edin.
A) $x\geq 6$ B) $x\geq 5$ C) $x\geq 4$
D) $x\geq 3$ E) $x\geq 2$


7. ΔABC-də AH hündürlüyü, BT tənböləni və CM medianı çəkilmişdir. AH = BT = CM olarsa, aşağıdakılardan hansı doğrudur?
A) AB < AC < BC B) AB < BC < AC
C) BC < AC < AB D) BC < AB < AC
E) AC < BC < AB

8. $z = 1 + i$ kompleks ədədinin əksi ilə qoşmasının hasilini tapın.
A) –2 B) –1 C) 0 D) 1 E) 2

9. k tam ədəddir, $\frac{x^2+k}{x+3}$ rasional ifadəsini ixtisar etdikdə $ax + b$ ikihədlisi alınırsa, $k(a + b)$ hasilini tapın.
A) 0 B) –9 C) 18
D) –27 E) 36

10. $\lim\limits_{x\to 3}\frac{x^2-9}{x^2-7x+12}$-i hesablayın.
A) –6 B) –3 C) 2 D) 4 E) 8

11. A, B və C nöqtələri çevrə üzərindədir. $\overset{\frown}{ABC}=260°$ olarsa, $\angle ABC$-ni tapın.
A) 78°
B) 65°
C) 55°
D) 50°
E) 52°



12. $|\cos x| = 1$ tənliyinin $[0; 2\pi)$ intervalındakı köklərinin sayını tapın.
A) 1 B) 2 C) 3 D) 4 E) 5

13. Tərəfləri a sm və b sm, sahəsi isə S sm² olan düzbucaqlının sahəsi (sm²-lə) tərəflərinin (sm-lə) həndəsi ortasına bərabər olarsa, sahəsini tapın.
A) 4 sm² B) 2 sm² C) $\sqrt{3}$ sm²
D) $\sqrt{2}$ sm² E) 1 sm²

14. $y = 2x^2 - 8x + 16$ parabolasına hansı nöqtədə çəkilmiş toxunan absis oxuna paraleldir?
A) 0 B) 2 C) 4 D) 8 E) 16

15. $-2\sqrt{5}$ ifadəsində vuruğu kök işarəsi altına salın.
A) $-\sqrt{-10}$ B) $-\sqrt{-20}$ C) $\sqrt{-50}$
D) $-\sqrt{20}$ E) $\sqrt{-10}$


16. $\begin{cases} ax-y=-c \\ 4x+by=6 \end{cases}$ tənliklər sisteminin sonsuz sayda həlli var və koordinat sistemində bu həllər çoxluğu $y = 2x - 3$ düz xəttini əmələ gətirirsə, abc hasilini tapın.
A) –8 B) 12 C) –16 D) 18 E) –24

17. Sinfin 60 %-i qız şagirdləridir və həmin qızların 20 %-i eynəklidir. Sinifdən təsadüfən seçilən bir şagirdin eynəkli qız olması ehtimalını tapın.
A) $\frac{1}{40}$ B) $\frac{1}{20}$ C) $\frac{2}{25}$ D) $\frac{3}{20}$ E) $\frac{3}{25}$

18. Başlanğıc nöqtəsi A(–4; –3) və son nöqtəsi B(–2; –1) olan $\overrightarrow{AB}$ vektorunun meyl bucağını tapın.
A) 30° B) 45° C) 60°
D) 90° E) 120°

Scanned with CamScanner

19. ABC bərabərtərfli üçbucaq, G ağırlıq mərkəzi, DE ∥ AC və $P_{\Delta ABC} = 360$ sm olarsa, DE-ni tapın.



A) 100 sm B) 96 sm
C) 90 sm D) 80 sm
E) 60 sm

20. Tam səthinin sahəsi 36π sm² olan kürənin həcmini tapın.

A) 18π sm³ B) 27π sm³ C) 36π sm³
D) 54π sm³ E) 72π sm³

21. $y = 2^{1-x} - 1$ funksiyası aşağıdakılardan hansı doğru ***deyil***?

A) Təyin oblastı $(-\infty;+\infty)$ çoxluğudur.

B) Qiymətlər çoxluğuna daxil olan ən kiçik tam ədəd 0-dır.

C) $(-\infty;0)$ intervalında artandır.

D) Ox oxunu $(1;0)$ nöqtəsində kəsir.

E) Dövri ***deyil.***

22. ABCD düzbucaqlısında AB = 15 sm və BC = 20 sm olarsa, D təpəsindən BC diaqonalına qədər məsafəni tapın.

A) 5 sm B) 8 sm C) 9 sm
D) 10 sm E) 12 sm

Cavablarının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar

23. $n(A \setminus B) = n(A \cap B) = n(B \setminus A) = 6$ olarsa, $n(A \cup B)$-ni tapın.

24. 68 kq, 102 kq və 170 kq ağırlığında üç kisə düyü bir-birinə qarışdırılmadan bərabər tutumlu qablara doldurulmalıdır. Bunun üçün artıq düyünün qalmaması şərtilə ən azı neçə qab lazımdır?

25. Bakı və Şəki arasındakı məsafə 300 km-dir. Miqyası 1 : 6000000 olan xəritədə bu məsafə neçə sm olar?


26. Hansı müsbət ədədin tam hissəsi kəsr hissəsindən 2 dəfə böyükdür?

27. $x^2 + 4x + 1 = 0$ tənliyinin kökləri x_1 və x_2 olarsa, uyğunluğu müəyyən edin.

1. $x_1^3 + x_2^3$	a. –76
	b. –52
2. $x_1^2 + \frac{1}{x_1^2}$	c. 14
	d. –4
3. $\frac{1}{x_1} + \frac{1}{x_2}$	e. 6

Həllinin ətrafılı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlar

28. Diaqramda A ədədinin sadə vuruqları və onların sayı verilmişdir. A və B ədədlərinin ortaq olmayan sadə vuruqlarının hasili 10, ƏKOB(A; B) + ƏBOB(A; B) = 1980 olarsa, B-ni tapın.



29. a və b sıfırdan fərqli həqiqi ədədlərdir.

$4a^3 + 4ab^4 - a^2b - b^5 = 0$ olarsa, $\frac{a^2+b^2}{ab}$-ni tapın.

30. İsbat edin ki, ABC itibucaqlı üçbucağında A və B təpələrindən çəkilən hündürlüklər arasında qalan iti bucaq C bucağına bərabərdir.

Situasiya

Düzgün çoxbucaqlının bir daxili bucağının dərəcə ölçüsü 360-ın bölənidirsə, bu çoxbucaqlılarla sahəni boşluq qalmadan örtmək (parketləmək) mümkündür.

28. n-in neçə qiymətində düzgün n-bucaqlının bir daxili bucağının dərəcə ölçüsü 360-ın bölənidir?

29. Eni 3,5 m və uzunluğu 6 m olan düzbucaqlı formasında sahəni parketləmək üçün tərəfi 10 sm olan neçə kvadrat şəkilli parket lazımdır?

30. Düzgün 6-bucaqlı parketin tərəfi sahəsi $36\sqrt{3}$ sm² olan düzgün 3-bucaqlı parketin tərəfindən 2 dəfə kiçikdir. Bu 6-bucaqlı parketin sahəsini tapın.

Scanned with CamScanner

Sınaq 12 - Qəbul

1. $\frac{\sqrt{5}-2}{\sqrt{5}+2}+\frac{20}{\sqrt{5}}$ ifadəsini sadələşdirin.
A) 9 B) 6 C) 3 D) 2 E) 1


2. $\lg^2 x - 2\lg x - 1 = 0$ tənliyinin köklərinin hasilini tapın.
A) 10^2 B) 10 C) 1 D) 10^{-1} E) 10^{-2}

3. Çevrə daxilinə çəkilmiş 50°-lik bucağın söykəndiyi qövsün dərəcə ölçüsünü tapın.
A) 25° B) 50° C) 100° D) 120° E) 130°

4. $a=\sin 30°, b=\cos 30°, c=\operatorname{tg} 30°$ və $d=\operatorname{ctg} 30°$ olarsa, a, b, c və d ədədlərini müqayisə edin.
A) $a<b<d<c$ B) $a<c<b<d$
C) $a<d<b<c$ D) $d<b<a<c$
E) $d<a<c<b$

5. $\frac{1}{4x^2y}$ və $\frac{1}{6xy^3z}$ kəsrlərinin ən sadə ortaq məxrəcini tapın.
A) $24x^3y^4z$ B) $24x^3y^3z$ C) $12x^3y^4z$
D) $12x^2y^3z$ E) $12x^3y^2z$

6. Şəkildə düz dördbucaqlı prizmanın daxilinə silindr çəkilmişdir. $\angle B = \angle D = 90°$, $AB = AD = 3$ sm, $BC = CD = 4$ sm və $CC_1 = 49$ sm olarsa, silindrin həcmini tapın.
A) 160π sm³ B) 156π sm³
C) 152π sm³ D) 144π sm³
E) 136π sm³



7. Bərabəryanlı üçbucağın oturacağına bitişik xarici bucağı 105° olarsa, onun bərabər tərəfləri arasındakı daxili bucağını tapın.
A) 20° B) 30° C) 40° D) 50° E) 60°

8. Koordinat başlanğıcından keçən və $y = 2x - 1$ düz xəttinə perpendikulyar olan düz xəttin tənliyini yazın.
A) $y = -0{,}5x$ B) $y = -x$ C) $y = -2x$
D) $y = 0{,}5x$ E) $y = 2x$

9. Uzunluğu 54 sm olan parça üç bərabər hissəyə bölünmüşdür. Birinci hissənin ortasından parçanın sonuna qədər olan məsafəni tapın.
A) 32 sm B) 36 sm C) 38 sm
D) 42 sm E) 45 sm


10. Koordinat oxlarını A(–4; 0), B(12; 0) və C(0; 6) nöqtələrində kəsən çevrənin hüdudlandırdığı dairənin sahəsini tapın.
A) 72π B) 65π C) 54π
D) 48π E) 36π

11. A ədədinin 3 : 4 : 5 nisbətində bölünməsindən alınan ən böyük ədəd 25 olarsa, A-nı tapın.
A) 40 B) 45 C) 50 D) 55 E) 60

12. 7-yə bölünən ikirəqəmli ədədlərin cəmi aşağıdakılardan hansına tam ***bölünmür***?
A) 4 B) 7 C) 8 D) 9 E) 13

13. Məxrəci 25 olan düzgün kəsrlərin ən böyüyü ilə ən kiçiyinin fərqini tapın.
A) 0,96 B) 0,92 C) 0,88
D) 0,84 E) 0,8

14. $BD : DC = 3 : 5$ və $S_{\Delta ABD} = 15$ sm² olarsa, $S_{\Delta ABC}$-ni tapın.
A) 25 sm²
B) 30 sm²
C) 35 sm²
D) 40 sm²
E) 45 sm²



15. $(A \cup B) \setminus A$ çoxluğu aşağıdakılardan hansına bərabərdir?
A) $A \cap B$ B) B C) $B \setminus A$
D) B'_A E) $\varnothing$

16. $(x + 1)(x + 3) > (x - 1)(x - 3)$ bərabərsizliyini həll edin.
A) $x > 0$ B) $x < 0$ C) $x > -1$
D) $x < 1$ E) $x > 1$

17. Aşağıdakı ədədlərdən hansı 105 ədədi ilə qarşılıqlı sadədir?
A) 102 B) 107 C) 110
D) 112 E) 117

Scanned with CamScanner

18. Düzgün n-bucaqlının bir təpəsindən çıxan iki ən kiçik diaqonalı bir-birinə perpendikulyar olarsa, n-i tapın.
A) 5 B) 6 C) 8 D) 9 E) 10

19. Paralel köçürmədə A(–1; 4) nöqtəsi B(1; 1) nöqtəsinə keçir. Bu paralel köçürmədə hansı nöqtə C(5; 2) nöqtəsinə keçər?
A) (2; 5) B) (7; –1) C) (2; –1)
D) (3; 5) E) (3; –1)

20. Perimetri 28 sm olan düzbucaqlının tərəflərindən biri digə-rindən 4 sm böyük olarsa, onun kiçik tərəfinin uzunluğunu tapın.
A) 2 sm B) 3 sm C) 4 sm
D) 5 sm E) 6 sm

21. $2xy - 2 + x^2y - x$ çoxhədlisini vuruqlara ayırın.
A) $(2 + x)(xy + 1)$ B) $(2 - x)(xy - 1)$
C) $(2 + x)(xy - 1)$ D) $(2 - x)(xy + 1)$
E) $(2 - x)(x + y)$

22. $\begin{cases} 3x - 2y = -9 \\ 2x + 5y = 13 \end{cases}$ tənliklər sistemindən y-i tapın.
A) –2 B) 0 C) 1 D) 2 E) 3


Cavablarının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar

23. $(a - 2)x = a + b - 6$ xətti tənliyinin sonsuz sayda həlli olarsa, ab hasilini tapın.

24. $\sin(\alpha + \beta) = 0{,}2$; $\sin(\alpha - \beta) = 0{,}4$ və $\cos\beta = 0{,}5$ olarsa, $\sin\alpha$-nı tapın.

25. 2,5 ədədinin kəsr hissəsi tam hissəsinin neçə faizidir?

26. ABC bərabərtərəfli üçbucağında G ağırlıq mərkəzi və DE ∥ AC olarsa, AC : DG nisbətini tapın.



27. İlk 10 sadə ədəddən ibarət olan ədədi sıra üçün uyğunluğu müəyyən edin.

1. median
2. ədədi orta
3. ən böyük fərq

a. 12 b. 12,9 c. 15
d. 17,5 e. 27

Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli tapşırıqlar

28. Düzgün tetraedrin yan səthinin sahəsi $24\sqrt{3}$ sm²-dirsə, həcmi neçə sm³ olar?

29. $f(x) = \log_2(3x - m)$ funksiyası üçün $f(3) = 3$ olarsa, $f^{-1}(5)$-i tapın.

30. İsbat edin ki, konusun ox kəsiyi bərabərtərəfli üçbucaq olarsa, yan səthinin açılışı yarımdairədir.

Situasiya - Sürücü

Araşdırmalar göstərir ki, sürücülərin maneələrə reaksiya müddətini (salisə ilə) $T(x) = 0{,}01x^2 - 0{,}4x + 26$ funksiyası ilə modelləşdirmək olar. Burada x sürücünün yaşını göstərir.

Əyləci basdıqdan sonra gedilən yolun (izin) uzunluğuna (d, metrlə) görə avtomobilin əyləci basıldığı andakı sürətini (metr/saniyə ilə) $v = 5{,}5 \cdot \sqrt{0{,}75 \cdot d}$ düsturu ilə müəyyən etmək olar.

28. 18 yaşlı Elvinin və onun böyük qardaşı Tehranın maneələrə reaksiya müddətləri eyni olarsa, Tehranın yaşını tapın.

29. Reaksiya müddəti ən az olan sürücünün yaşını və reaksiya müddətini (salisə ilə) tapın.

30. Əyləci basdıqdan sonra gedilən yolun uzunluğu 12 metr olarsa, bu avtomobilin sürəti neçə km/saatdır?

Scanned with CamScanner

İsbat məsələləri

1. İsbat edin ki, ədədin son iki rəqəmindən ibarət ədəd 4-ə bölünürsə, həmin ədəd ədəd 4-ə bölünür.

2. n-in 1-dən böyük istənilən natural qiymətində $n^3 - n$ fərqinin 6-ya qalıqsız bölündüyünü isbat edin.


3. a ədədi b ədədindən m % az və b ədədi a ədədindən n % çox olarsa, $\frac{n \cdot m}{n - m} = 100$ olduğunu isbat edin.

4. Bərabəryanlı korbucaqlı üçbucağın yan tərəfi a sm, oturacağı isə c sm-dir. İsbat edin ki, bu üçbucaq üçün $\frac{c}{2} < a < \frac{\sqrt{2}c}{2}$ ikiqat bərabərsizliyi doğrudur.

5. İsbat edin ki, katetləri a və b, hipotenuzu c olan düzbucaqlı üçbucaq üçün $a + b = 6\sqrt{c}$ olarsa, bu üçbucağın hipotenuzuna çəkilmiş hündürlüyü ilə medianının cəmi 18-ə bərabərdir?


6. ABCD paraleloqramında $\angle ADC > 90°$ və BC böyük tərəfdir. BC tərəfi üzərində qeyd olunmuş E nöqtəsindən AD və DC tərəflərinə qədər məsafələr bərabər olarsa, DE parçasının D bucağının tənböləni üzərində yerləşdiyini isbat edin.

7. İsbat edin ki, şəkildəki bərabəryanlı ABC üçbucağında AB = BC = x, BD = y, AD = a və DC = b olarsa, $x^2 - y^2$ fərqi a · b hasilinə bərabərdir.




8. İki xarici bucağı y və z olan üçbucağın bu bucaqlara qonşu ***olmayan*** daxili bucağının $y + z - 180°$ olduğunu isbat edin.

9. ABC üçbucağında CD hündürlük və CE tənbölən olarsa, $\angle DCE = \frac{\alpha - \beta}{2}$ olduğunu isbat edin.




10. ABCD dördbucaqlısında M, N, K və F nöqtələri uyğun olaraq, AB, BC, CD və AD tərəflərinin orta nöqtələridir. MNKF dördbucaqlısının paraleloqram olduğunu isbat edin.

11. Rombun hündürlüyü tərəfini a və $2a$ uzunluğunda iki hissəyə ayırır. İsbat edin ki, rombun AC diaqonalının uzunluğu $2\sqrt{6}a$-ya bərabərdir?




Scanned with CamScanner

12. İsbat edin ki, oturacaqları a və b, hündürlüyü isə h olan bərabəryanlı trapesiyanın sahəsi $\left(\frac{a+b}{2}\cdot h\right)$-dır.




13. Oturacaqları a və b olan bərabəryanlı trapesiyanın daxilinə çevrə çəkilmişdir. İsbat edin ki, bu trapesiyanın sahəsi $S=\frac{1}{2}(a+b)\sqrt{ab}$ düsturu ilə hesablanılır.

14. Şəkildə oturacaqları $3a$ və a olan və daxilinə çevrə çəkilmiş düzbucaqlı trapesiya göstərilmişdir. İsbat edin ki, bu trapesiyanın sahəsi $3a^2$-na bərabərdir.




15. İsbat edin ki, BC düzbucaqlı üçbucağında $ED \perp AB$, $AD = a$, $BC = b$ və $ED = c$ olarsa, ABC düzbucaqlı üçbucağın sahəsi $\frac{a\cdot b^2}{2c}$-yə bərabərdir.



16. İsbat edin ki, tərəfləri a sm və $(24-9a)$ sm olan düzbucaqlının sahəsi ən çox 16 sm² ola bilər.

17. Düzbucaqlı üçbucağın düz bucaq təpəsindən çəkilmiş hündürlüyü h, hipotenuzun bölündüyü hissələr m və n olarsa, isbat edin ki $h^2 = m \cdot n$ düsturu doğrudur.



18. Üçbucağın bucaqları arasındakı $\frac{\sin^2\alpha}{\sin^2\beta+\sin^2\gamma}=1$ münasibətinə əsasən isbat edin ki, α bucağı $90°$-dir.

19. $0<\alpha<90°$ olarsa, isbat edin ki,

$$\frac{1+\cos\alpha+\cos\frac{\alpha}{2}}{\sin\alpha+\sin\frac{\alpha}{2}}-\sqrt{\frac{1+\cos\alpha}{1-\cos\alpha}}$$

ifadəsinin qiyməti 0-a bərabərdir.


20. İsbat edin ki, doğuranı oturacağının radiusundan 2 dəfə böyük olan konusun yan səthinin açılışı yarımdairədir.

Scanned with CamScanner

Situasiya tapşırıqları

İdmançılar

Piktoqramda yarışda iştirak edən idmançıların sayı haqqında məlumat verilmişdir.



1. Yarışda iştirak edən oğlanların sayı qızların sayından neçə faiz çoxdur?

2. Komandalardakı iştirakçıların sayı və komandaların tərkibləri eyni olarsa, hər komandadakı iştirakçıların sayını tapın.

3. Qalib komandalar üçün ayrılmış 10000 manatın $\frac{3}{5}$ hissəsi 1-ci yeri qazanan komandaya verilir. Komandanın hər bir iştirakçısı neçə manat pul alar?

İdman yarışları

Məktəb 25 nəfərlik şagird heyəti ilə idman yarışları keçirir. 5 oğlan şagirdi qaçış və üzgüçülük idman növləri üzrə yarışır. 20 qız şagirdi isə şahmat və dama idman növləri üzrə yarışır.





1. Qız şagirdlərindən yalnız bir idman növü üzrə yarışan 13 nəfərdir. Dama idman növü ilə yarışan qız şagirdlərinin sayı, şahmat idman növü ilə yarışan qız şagirdlərinin sayından iki dəfə çox olarsa, şahmat idman növü ilə yarışan qız şagirdlərinin sayını tapın.

2. Dairəvi qaçış zolağında yarışan üç oğlan şagirdindən birincisi 6 dəqiqəyə, ikincisi 8 dəqiqəyə, üçüncüsü isə 10 dəqiqəyə bir dövrəni tamamlayır. Eyni nöqtədən qaçmağa başlayan şagirdlər hərəsi öz sürəti ilə qaçmağa davam edərlərsə, hər üçü ilk dəfə eyni nöqtəyə gəldikdə ikinci şagird neçə dövrə qaçmış olar?


3. Yarışda oğlan şagirdlərinin 20%-i, qız şagirdlərinin 15%-i qalib olarsa, şagirdlərin ümumilikdə neçə faizi qalib olar?

Scanned with CamScanner


Bina

Məktəbdən evlərinə doğru düz xətlər boyunca hərəkət edən Əhməd və Azərin hərəkət istiqamətləri 60° bucaq əmələ gətirir.


Əhməd yaşadığı binanın hündürlüyünü müəyyən etmək üçün A və B nöqtələrindən yüksəliş bucağının uyğun olaraq 15° və 30° olduğunu ölçür.



1. Əhməd məktəbdən evlərinə qədər 5 km, Azər isə məktəbdən evlərinə qədər Əhməddən 60% daha çox yol gedərsə, Əhməd və Azərin yaşadıqları binalar arasındakı məsafəni tapın.



2. A və B nöqtələri arasındakı məsafə 48 m olarsa, binanın hündürlüyünü tapın.



3. Əhməd və Azərin üç fərqli KSQ imtahanında topladıqları balların ədədi ortası uyğun olaraq 77 və 83 baldır. Dördüncü imtahanda Əhməd Azərdən nə qədər çox bal toplamalıdır ki, onların dörd imtahan nəticəsinə görə topladıqları balların ədədi ortaları bir-birinə bərabər olsun?


Şabalıd ağacı

Adil şabalıd ağacından aralı, Bəhruz isə bu ağacın dibində dayanıb. Onlar arasındakı məsafə 1,5 m, Adil ilə ağac arasındakı məsafə isə bundan 40% azdır.

Bəhruz şabalıd ağacının kölgəsini addımları ilə ölçdü. Ağacın kölgəsi Bəhruzun addımının uzunluğunun 80 mislinə bərabər oldu.

Yeni yığılan şabalıdın bir kiloqramının qiyməti 5 manat, quru şabalıdın isə 7 manatdır.

1. Sxemdə Adil və Bəhruzun olduğu nöqtələri birləşdirən parçanı toxunan qəbul edərək, ağacın çevrəsinin radiusunu tapın.



2. Bəhruzun addımının uzunluğu 70 sm-dir. Bəhruzun boyunun kölgəsinə nisbəti 3 : 4 kimi olarsa, şabalıd ağacının hündürlüyünü tapın.

3. Adil və Bəhruz birlikdə ağacdan 100 kq şabalıd yığdılar. Yığılan şabalıdın yarısını satdılar. Qalan yarısını isə qurutduqdan sonra satdılar və satışdan cəmi 530 manat əldə etdilər. Şabalıd qurudulduqda kütləsinin neçə faizini itirir?

Scanned with CamScanner

Yarışlar

Məktəb 15 nəfərlik şagird heyəti ilə yarışlarda iştirak edir.

3 oğlan şagirdi tir atışı və velosiped yarışında iştirak edir. 12 qız şagirdi isə rəsm və şeir yarışmasında iştirak edir.

1. Tir atışı oyununda oyunçuya hədəfə dəyən atışların sayı qədər 3 manat verilir və oyunçudan hədəfə dəyməyən atışların sayı qədər 2 manat alınır. 15 atış edən Samir cibindəki 40 manat pulun 62,5% -i qədər pul alarsa, hədəfə dəyməyən atışların sayını tapın.


2. Əhməd və Səməd velosipedlə eyni nöqtədən eyni anda hərəkətə başlıyır. Səməd 37,5 km məsafəni 250 metr/dəq sürətlə hərəkət edərək, finiş nöqtəsinə çatır. Əhməd isə finiş nöqtəsinə ondan 1 saat daha tez çatarsa, Əhmədin orta sürəti neçə km/saat olmuşdur?

3. Yarışda qız şagirdlərinin 75 %-i qalib olur. Oğlan şagird-lərindən qalib olmadığına görə şagirdlərin ümumilikdə neçə faizi qalib olur?

Mahmudun atası

Mahmudun atası Mahmudu məktəbə aparır və ordan işə gedir. İşdən sonra idman zalına gedən atası sonra Mahmudu məktəbdən götürür və evə gətirir. Məktəb ev ilə idman zalı arasındakı yolun ortasında yerləşir.

Mahmudun atasının maşını 1 litr benzinlə magistral yolda 10 km, şəhər içərisində isə 7 km yol gedir.



1. Evdən işə, işdən idman zalına və idman zalından evə məsafələr uyğun olaraq 5 : 5 : 8 nisbətindədir. Bu məsafə 36 km olarsa, məktəbdən işə qədər məsafəni tapın.

2. Gün ərzində Mahmudun getdiyi yol atasının getdiyi yolun neçə faizidir?

3. Mahmudun atasının maşını magistral yolda 6 litr və şəhər içərisində x litr benzin işlədir. Maşının 1 litr benzinlə orta hesabla neçə km yol getdiyini göstərən ifadəni yazın.

Scanned with CamScanner

Liman

Bakı limanından eyni anda düz bucaq altında kəsişən yollar üzrə iki gəmi hərəkətə başladı. Gəmilərdən biri şərqə – Türkmənbaşı limanına, digəri isə şimala – Həştərxan limanına gedir.

Bakı limanından Həştərxan limanına qədər məsafə 800 km-dir və bu yolla hərəkət edən gəminin sürəti saatda 40 km-dir.

Şərqə doğru hərəkət edən gəmidə 120 sərnişinlik yer var. Uşaqlar üçün bilet 30 manat, böyüklər üçün bilet isə 60 manatdır.



1. Türkmənbaşıya gedən gəminin sürəti Həştərxana gedən gəminin sürətindən 25 % azdır. Gəmilər hərəkətə başladıqdan 1 saat sonra aralarındakı məsafə neçə km olar?

2. Həştərxana gedən gəmi yolun yarısına çatdıqda şərqə gedən gəmi Türkmənbaşıya çatır. Bakı limanından Türkmənbaşı limanına qədər olan məsafə neçə km-dir?


3. Türkmənbaşıya gedən gəmidəki yerlərin – biletlərin 80 %-i satılır və bu satışdan 4680 manat əldə edilir. Neçə uşaq bileti satılmışdır?

Gül bağçası

Bağban ölçüləri 8 m və 12 m olan düzbucaqlı formalı bağçanın kənarlarına güllər əkməklə bağçanın sahəsini genişləndirməyi nəzərdə tutur.

Əkiləcək güllər çəhrayı, ağ və qırmızı rəngdədir və onların ümumi sayı 96-dır.

Hər bağlama, sayı eyni olan birrəngli güllərdən ibarətdir və bu güllərə cəmi 270 manat ödənilmişdir.



1. Genişləndirildikdən sonra bağçanın sahəsi 2 dəfə artacaqdır. Güllər əkiləcək sahənin enini tapın.

2. Ağ güllər çəhrayı güllərdən 6 ədəd çox və qırmızı güllərdən 12 ədəd azdır. Hər bağlamada neçə gül olarsa, bağlamaların sayı ən az olar?

3. Güllərə ödənilən pulun $\frac{1}{3}$-i ağ güllərə ödənilmişdir.

Çəhrayı güllərə ödənilən pulun qırmızı güllərə ödənilən pula nisbəti 8 : 7 olarsa, 1 qırmızı gülün qiymətini tapın.

Scanned with CamScanner

Kinoteatr

Yeni filmlərin kino-teatrda nümayişi ilə məşğul olan şirkət növbəti yeni filmin nümayişinə hazırlaşır. Şirkət internet vasitəsilə biletin qiymətinin 30 manat olması elanını verir və 400 nəfər onlayn olaraq bu qiymətlə razılaşaraq filmə gələcəyini bildirir.




1. Tamaşa salonunun oturacaqları 1-ci cərgədə 25 yer və hər sonrakı cərgədə isə əvvəlki cərgədən 4 artıq yer olmaqla düzülmüşdür. Orta cərgədəki yerlərin sayı 85 olarsa, oturacaqların ümumi sayını tapın.


2. Şirkət internet vasitəsilə elan verərək, müəyyən edir ki, hər dəfə biletin qiymətini 1 manat ucuzlaşdırdıqda 20 nəfər daha çox tamaşaçı filmə gəlməyə razılıq verir. Bu gedişlə şirkət biletin qiymətini nə qədər ucuzlaşdırmalıdır ki, gəlir maksimum olsun?

3. Tamaşa salonunun kağız üzərindəki planı 1 sm : 20 m miqyası ilə çəkilmişdir. Film izlənilən ekranın plan üzərindəki uzunluğu 3 mm olarsa, ekranın həqiqi uzunluğu neçə metr olar?

Yeni yaşayış massivi

Şəkildə yeni salınmış yaşayış massivi və onun sxemi verilmişdir. Çevrələr hər biri bir qəsəbə, ABCD trapesiyası isə həmin qəsəbələri əhatə edən bərabəryanlı trapesiya şəkilli asfaltlanmış yoldur. Sxemdəki hər bir çevrə daxilində yerləşdiyi fiqurun bütün tərəflərinə toxunur. N və P çevrələri radiusu 1 km olan bərabər çevrələrdir.





1 BC məsafəsinin 2,5 km olduğunu bilərək yaşayış massivini əhatə edən asfaltlanmış yolun uzunluğunu (trapesiyanın perimetrini) tapın.

2. Böyük qəsəbənin ərazisinin (sxemə əsasən M mərkəzli dairənin) sahəsini tapın.

3. Yeni yaşayış massivinin tikintisi üçün iki müxtəlif tikinti şirkətləri ilə görüşülür. Birinci şirkət bu işi 12 ayda, ikinci şirkət isə 24 ayda bitirəcəyini planlayır. Hər iki şirkət eyni vaxtda işə başlayarsa işin 75% - ini neçə ayda bitirərlər.

Scanned with CamScanner

Ferma - 2

Femadakı inək, keçi və qoyunların ümumi sayı 320-yə bərabərdir. Keçilərin sayı qoyunların sayından 5 dəfə azdır.

Gün ərzində 1 inək, 1 keçi və 1 qoyunun yedikləri quru otun miqdarları 3 : 2 : 2 nisbətindədir.

1. Heyvanların $\frac{2}{5}$-si inək olarsa, qoyunların sayını tapın.

2. İnəklərdən günlük sağılan 250 *l* südün 28 %-dən, keçilərdən və qoyunlardan birlikdə günlük sağılan 50 *l* südün isə hamısından pendir hazırlanır. Günlük sağılan bütün südün neçə faizindən pendir hazırlanır?

3. Qoyunlar gündə bir anbardakı quru otun 80 kq-nı yeyir. Yeni biçilmiş ot quruduqda kütləsinin 70 %-ni itirirsə, fermadakı bütün heyvanların günlük yemini təmin etmək məqsədilə bu anbara yığmaq üçün neçə kq ot biçilməlidir?

Mebel

Mebel istehsal edən şirkətin aylıq istehsal etdiyi stulların sayını $N(t) = 100 + 48t$ funksiyası, işçi qüvvəsinin həcmini (sayını) isə $V(N) = 2 \cdot \sqrt[3]{N+3} + 6$ funksiyası ilə modelləşdirmək olar. Burada t aylarla vaxtı, N stulların sayını və V işçilərin sayını göstərir.

1 stulun satış qiyməti 50 manatdır.

1. Şirkətə 5-ci ay üçün neçə işçi lazımdır?


2. Şirkət 5-ci ayda istehsal etdiyi stulların $\frac{15}{17}$ hissəsini satdı. Satışdan əldə olunan məbləğin 70 %-i işçilərə verilərsə, 1 işçi orta hesabla neçə manat pul aldı?

3. Şirkət 2-ci ayda 196 stul istehsal etdi. Bu stullar 4 və 6 nəfərlik stollar ilə birlikdə dəstlər şəklində satış üçün dükanlara göndərildi. Stolların ümumi sayının stulların sayına nisbəti 3 : 14 olarsa, 6 nəfərlik stolların sayını tapın.

Scanned with CamScanner

Park - 2

Tikinti şirkəti üç binanın sakinləri üçün bərabəryanlı üçbucaq formasında (AB = BC) park inşa etməyə qərara alır. Bu üçbucağın oturacağı 12 m, perimetri isə 54 m-dir. Parkın təpə nöqtələrində yerləşən A, B və C binalarındakı mənzillərin sayları uyğun olaraq 9 : 11 : 15 nisbətindədir.




1. Parkın A təpəsindən qarşı tərəfin ortasına qədər çəkilən yolun uzunluğunu tapın.

2. Hər üç təpəyə basdırmaq şərti ilə parkın kənarlarına aralarındakı məsafələr bərabər olmaqla ən azı neçə işıq dirəyi basdırmaq olar?

3. Parkın inşası üçün üç binanın sakinlərindən mənzillərin saylarına uyğun nisbətdə cəmi 2100 manat pul yığılır. C binasından yığılan pul parkın inşası üçün nəzərdə tutulan pulun 3 %-dir. Parkın inşası üçün ümumilikdə nə qədər pulun xərclənməsi nəzərdə tutulub?

Marşurut

İki sərnişin avtobusunun marşurut xətti şəkildəki kimi AB və MN düz xətləri üzrədir və P nöqtəsində kəsişirlər. AP = PB və 4MP = 5PN. 1N-li avtobus məsafəsi 24 km olan"Market"dən başlayaraq "Məktəb" ə qədər, 2N-li avtobus isə məsafəsi 18 km olan "Uşaq baxçası"ndan başlayaraq "Stadion" a qədər hərəkət edir. 1N-li avtobus bu məsafəni $\frac{5}{6}$ saata , 2N-li avtobus isə $\frac{3}{5}$ saata tamamlayır..



1. 1N-li avtobus 2N-li avtobusun sürətilə gedərsə, öz marşurut xəttini neçə dəqiqəyə tamamlayar?

2. Hər iki avtobus eyni anda hərəkətə başlayır. 2N-li avtobus "Xəstəxana"ya çatdıqda, 1N-li avtobusun həmin xəstəxanaya çatması üçün neçə metr məsafəsi qalar?

3. Yollar 30°-li bucaq altında kəsişərsə, "Xəstəxana", "Stadion" və "Məktəb" arasındakı üçbucaq formalı meşənin sahəsini km² -ilə tapın.

Scanned with CamScanner

Qoyunçuluq

Fermer qoyunların həm ətindən, həm dərisindən, həm də yunundan istifadə edir.

Qoyunun dərisinin 1 kv. metri və ətinin 1 kq-ı 10 manatdır. ***Təmizlənməmiş*** yunun 1 kiloqramı 0,9 manat, təmizlənmiş yunun 1 kq-ı isə 2 manatdır

Qoyunların dərisinin sahəsini (m^2 ilə) $\frac{1}{10}\cdot\sqrt[3]{m^2}$ ifadəsinin qiymətini hesablamaqla müəyyən etmək olar. Burada m qoyunun ümumi kütləsidir (kq ilə).

1. Hər bir qoyunun ümumi kütləsinin 70 %-ini ət təşkil edir. Kütləsi 27 kq olan qoyunun əti və dərisinin ümumi qiyməti neçədir?


2. Fermer hər mövsüm qoyunlardan qırxdığı 360 kq yunun yarısını ***təmizlənməmiş***, qalan yarısını isə təmizlədikdən sonra satır və bu satışdan 432 manat əldə edir. Yun təmizləndikdə kütləsinin neçə faizini itirir?

3. Fermadakı A və B cinsindən olan qoyunların sayları nisbəti uyğun olaraq isə 3 : 4, sayları cəmi isə 98-dir. Fermer satmaq üçün A cinsindən olan qoyunlardan 2-ni neçə fərqli üsulla seçə bilər?

Hovuz

Şəkildə tərəfi 20 m olan düzgün səkkizbucaqlı formasında park və onun daxilində yerləşən hovuzun planı verilmişdir. Şəkildən göründüyü kimi, düzbucaqlı formasında olan hovuzun uzunluğu səkkizbucaqlının diaqonalına, eni isə səkkizbucaqlının tərəfinə bərabərdir.

Hovuzu su ilə doldurmaq üçün 2 fərqli gücə malik nasosdan istifadə olunur.



1. Parkın çəmənlərinin tutduğu hissələrin ümumi sahəsini tapın (m^2 ilə).

